Xalqın qəzeti!

# Xalq qəzeti

№ 278 (30394) 20 dekabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizənin ön cəbhəsində

**Respublikamızın bərpaolunan enerji potensialı əsasında istehsal edilən "yaşıl sərvət"in ixracının tezliklə həyata keçirilməsi, ölkəmizin bu sahədə genişmiqyaslı uğurlu layihələr reallaşdırması Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasından xəbər verir. Bu eranın əvvəlində Azərbaycanın COP29-a evsahibliyi hüququ qazanması həm ölkəmizə etimad göstəricisi kimi diqqət çəkir, həm də qarşıya qoyulan vəzifənin– 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılmasının gerçəkləşdiriləcəyi əminliyini ifadə edir.**




Xatırladaq ki, ətraf mühit, iqlim məsələləri milli sərhədlər tanımadığı, ümumbəşəri mahiyyət daşıdığı üçün ölkəmizdə keçiriləcək tədbirdə on minlərlə xarici qonağın iştirak edəcəyi gözlənilir. Bax, elə buna görə də COP29-un Azərbaycanda gerçəkləşəcəyi ilə bağlı qərar verilən ilk günlərdən Azərbaycanda bu əlamətdar hadisəyə hazırlıq görülür. Ölkəmizin hər bir vətəndaşı bununla əlaqədar bütün dünya ilə eyni hiss və həyəcanı bölüşür, müxtəlif dövlətlərdən gələn qonaqların isə müasir Azərbaycanı dünyanın hərtərəfli inkişaf edən tərəqqipərvər, sülhpərvər, tolerant bir ölkə kimi tanımaları baxımından mühüm önəm daşıyır.

Bütün bunları nəzərə alan XQ COP29-un əhatə dairəsinə daxil bütün mövzularda, o cümlədən neft-qaz ölkəsi olan Azərbaycanın "yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli, həmçinin respublikamızın "yaşıl enerji" siyasətinə qlobal dəstək–COP29-un Bakıda keçirilməsi qərarı ilə bağlı məsələlərə həsr olunan davamlı səhifələr verməyi, "dəyirmi masa"lar təşkil etməyi planlaşdırır. Bu sayımızda isə ilk belə səhifəni oxucularımızın diqqətinə yönəldiririk.

*(ardı 5-ci səhifədə)*

## İflasa məhkum "özfəaliyyət" dalğası

**Azərbaycan–Ermənistan münasibətlərini normallaşmağa doğru aparan təmaslar, bölgədə sülhün və sabitliyin təminatçısı rolunda çıxış edən Türkiyənin bu prosesə verdiyi dəstək Qərbin Cənubi Qafqazda öz maraqlarını güdən güclərinin kürkünə birə salıb. Üzdə iki ölkə arasında birbaşa dialoqu alqışladıqlarını bəyan edən həmin qüvvələr, yaxud onların koalisiyası arxada "çirkli ssenarilərini" dövriyyəyə buraxmağa cəhd göstərirlər. Bunun üçün "müstəqil" ekspertlər, çeşidli analitik institutların "politoloqları", cib qeyri-hökumət təşkilatlarının nümayəndələri, ələlxüsus da, satın alınmış media qurumları yeni "antitürk dalğası"nı işə salıblar. Hədəf Türkiyə–Azərbaycan birliyini, onun Rusiya ilə isti münasibətlərini sarsıtmaq, məqsəd, guya, bu üçlüyün Cənubi Qafqazı bütünlüklə ələ keçirmək "planlarının" qarşısını almaqdır. Kənardan görünən mənzərə belədir. Amma tablonun alt qatında gizlənən niyyət tamamilə fərqlidir. Yenə də ermənipərəst Qərbin fitvasına gedən separatçı avantürist haylar və onlara "züytutanlar" həvəslə bu düşərgənin səngərlərində özlərini "fəda etməyə" girişiblər.**

*(ardı 3-cü səhifədə)*



## Azərbaycanın Avropada enerji tərəfdaşları çoxalır

**Dövlət Gömrük Komitəsi dərc etdiyi göstəricilər əsasında apardığı hesablamalara görə, bu ilin yanvar – noyabr aylarında Azərbaycan 545 milyon 459 min dollar dəyərində 886 milyon 803 min ton neft məhsulları ixrac edib. Hesabat dövründə ölkəmizin ixrac etdiyi neft məhsullarının dəyəri 2022-ci ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 26,2 faiz, həcmi isə 35,5 faiz artıb. Xatırladaq ki, ötən il Azərbaycan 527 milyon 356 min dollar dəyərində 770 milyon 816 ton neft məhsulları ixrac edib.**



Magistral neft kəmərləri ilə 33 milyon 108 min ton neft nəql edilib. Nəqletmənin 76 faizi Bakı–Tbilisi–Ceyhan neft ixrac kəməri ilə həyata keçirilib və cari ilin yanvar–oktyabr ayları ərzində bu kəmər vasitəsilə 25 milyon 172 min ton neft ötürülüb.

Dövlət Gömrük Komitəsinin məlumatında, eyni zamanda, cari ilin yanvar–noyabr aylarında neft göndərilən ölkələrin həcm üzrə sıralaması da yer alıb. Belə ki, hesabat dövründə Azərbaycandan İtaliyaya 6 milyon 659 min dollar dəyərində 10 milyon 446 min ton neft ixrac edilib. Bununla da adıçəkilən dost ölkə respublikamızın ümumi neft ixracında birinci yerdə qərarlaşıb.

Azərbaycanın ixrac olunan neftin həcminə və dəyərinə görə, ikinci yeri tutan İsrailə hesabat dövründə 1 milyon 382 min dollar dəyərində 2 milyon 246 min ton neft satılıb. Neft ixracı üzrə siyahıda üçüncü yeri isə Hindistan tutub. Yanvar-noyabr aylarında bu ölkəyə 919 min dollar dəyərində 1 milyon 508 min ton neft ixrac edilib.

Məlumata əsasən, qeyd olunan göstəricilərdə hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb. Siyahıdan göründüyü kimi, yanvar-noyabr aylarında 22 ölkəyə 15 milyard 101 milyon dollarlıq 24 milyard 200 milyon ton neft ixrac edilib.

*(ardı 7-ci səhifədə)*

## Vaşinqton–Bakı yaxınlığı barədə "fikir" İrəvana nə üçün lazımdır?



**Dəfələrlə bildirilib ki, Qərbin bəzi dairələri Ermənistanın mövcud hakimiyyətini illüziya bataqlığına sürükləməkdədirlər. Həmişə də erməni iqtidarı həmin dairələrin sözdə dəstək bəyanatlarından ruhlanaraq, Azərbaycana qarşı çıxıb. Bu qarşıçıxma isə Cənubi Qafqaz regionunda sülhə demarş səciyyəsi daşıyıb.**

Əslində, indi də durum dəyişməyib. Bununla bağlı müxtəlif baxışlar var. Heç də demək istəmirik ki, bildirdikləri fikirlər ətrafında hazırda söz açacağımız Stendford Universitetinin professoru, siyasi icmalçı Artur Xaçikyan Ermənistanı, belə demək mümkünsə, qəflət yuxusundan ayıltmaq niyyətindədir. Şübhəsiz, o da Azərbaycana qarşı əks mövqe tutaraq, reallığı düzgün qiymətləndirməyənlərdən və bununla da İrəvanı haqqında danışdığımız illüziya bataqlığına çəkənlərdəndir. Ancaq siyasi icmalçının yanaşması bir qədər fərqlidir. Həm də ona görə fərqlidir ki, onun bildirdikləri tamam başqa məqsədin reallaşdırılmasına xidmət təsiri bağışlamaqdadır. Hansı məqsədin, bunu yazının sonunda diqqətə çatdıracağıq.

*(ardı 4-cü səhifədə)*

## "Mənə Puşkini verin, mən Belinski olum"



Səhifə ⇨ 8

## Türkiyə – Macarıstan əlaqələri strateji səviyyəyə yüksəlir



Səhifə ⇨ 11

## Tomas de Vaalın "qaranlıq əhvalatı"

**2023-cü il başa çatmaq üzrə olsa da, Azərbaycanla Ermənistan arasında gözlənilən sülh müqaviləsi bağlanmadı. Çox güman dekabrın son günlərində də bununla bağlı hansısa fövqəladə hadisə baş verməyəcək. Deməli, ümid 2024-cü ilədir. Bəs, növbəti ildə necə olacaq? Suala birmənalı cavab yoxdur. Hər bir halda sülh gözləntisi aktuallığını qorumaqdadır.**

Qeyd edək ki, 2023-cü ildə beynəlxalq ictimaiyyət Bakı–İrəvan yekun razılaşmanın əldə olunacağına çox ümidli idi. Ancaq ümidlər, belə demək mümkünsə, Azərbaycanın sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror əməliyyatının qarşısını ala bilmədi. Ümumən, 2020-ci ilin genişmiqyaslı İkinci Qarabağ müharibəsindən ötən hər il demək olar ki, 2023-cü ilin təkrarı kimi yadda qalıb. Yəni, Ermənistanla Azərbaycan arasında hərbi eskalasiya yaşanıb. Bu yazımızda durumun səbəblərindən danışıb, Ermənistanın tutduğu destruktiv yolun, sülh imitasiyalarının ayrı-ayrı istiqamətlərini sadalamaq niyyətindən uzağıq. Mövzumuz birbaşa sülh gözləntisi barədədir. Hesab edirik ki, bu baxımdan məşhur Karnegi Fondunun aparıcı tədqiqatçısı, Qarabağ münaqişəsi üzrə ekspert Tomas de Vaalın "News.am"da yayımlanan "Güc faktoru" proqramında dilə gətirdikləri maraq doğurmaya bilməz.

*(ardı 4-cü səhifədə)*

## “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592; 2020, № 2, maddə 109, № 5, maddə 556, № 6, maddə 700; 2021, № 3, maddə 229; 2022, № 1, maddə 24, № 3, maddə 223, № 10, maddə 1145, № 12, maddə 1416; 2023, № 7, maddə 948) dəyişikliklər təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2023-cü il**

## Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhəri Sabunçu rayonunun Zabrat, Sabunçu və Ramana qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 450,0 (dörd yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2023-cü il**

## Astara rayonunun Düriyyə–Şümrüd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bir min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Düriyyə–Şümrüd avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 800,0 (səkkiz yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2023-cü il**

## Baş nazirin BMK nümayəndə heyəti ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 19-da Beynəlxalq Maliyyə Korporasiyasının Avropa, Latın Amerikası və Karib hövzəsi ölkələri üzrə regional vitse-prezidenti Alfonso Qarsia Moranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanın Dünya Bankı və Dünya Bankı Qrupuna daxil olan qurumlarla əməkdaşlığa böyük önəm verdiyi, bu baxımdan Beynəlxalq Maliyyə Korporasiyası ilə uzunmüddətli səmərəli tərəfdaşlığın önəmi vurğulanıb. Qeyd edilib ki, ötən müddət ərzində Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinə dəstək verib.

Hazırda Azərbaycan hökuməti üçün prioritet hesab olunan sahələrdə Dünya Bankı, o cümlədən, Beynəlxalq Maliyyə Korporasiyası ilə potensial layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Diqqətə çatdırılıb ki, bu layihələr işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, məşğulluğun artırılması, “yaşıl” şəhərlərin yaradılması, Cənub Qaz Dəhlizi layihəsinin və Bakı gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, külək enerjisi infrastrukturunun tikintisi, digər istiqamətləri əhatə edə bilər.

Görüşdə Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

Ötən illər ərzində Azərbaycanın aşağı gəlirli ölkədən yüksək gəlirli donor ölkəyə çevrildiyi bildirilib. Vurğulanıb ki, 2021-ci ildən ölkəmiz Dünya Bankının donoru qismində iştirak edir.

Qeyd edilib ki, ölkədə işgüzar mühitin yaxşılaşdırılması, haqsız rəqabətin qarşısının alınması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün məqsədyönlü tədbirlər görülür. Eyni zamanda, qeyri-neft iqtisadiyyatının inkişafının əsas prioritetlərdən biri olduğu vurğulanıb. Bildirilib ki, azar sektorda müxtəlif növ güzəşt və kredit mexanizmləri tətbiq edilir.

Dövlət-özəl tərəfdaşlığı mexanizmləri vasitəsilə özəl sektorun iqtisadi inkişafda rolunun artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, rəqabətqabiliyyətli iqtisadiyyatın və kənd təsərrüfatının inkişafı, həmçinin dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin təşviqi və dəstəklənməsi Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə əsas fəaliyyət istiqamətlərini təşkil edir və ölkəmiz müvafiq sahələrdə əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

Eyni zamanda, Azərbaycanın iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəklədiyi və enerji səmərəliliyi istiqamətində ardıcıl fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa işləri, o cümlədən “yaşıl enerji” zonasının, ekoloji təmiz nəqliyyatın, “ağıllı” şəhər və kəndlərin yaradılması ilə bağlı layihələr bunun bariz təzahürüdür.

Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası–COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, bərpaolunan enerji mənbələrinə investisiyaların cəlb edilməsi, “təmiz enerji”yə keçidin təmin edilməsi Azərbaycanın enerji siyasətinin əsas prioritetləri sırasındadır və bu istiqamətlərdə də səmərəli tərəfdaşlıq üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə Dünya Bankı, o cümlədən, Beynəlxalq Maliyyə Korporasiyası ilə qarşılıqlı maraq doğuran bir sıra sahələrdə potensial əməkdaşlıq layihələri nəzərdən keçirilib.

***XQ***

**Milli Məclisdə**

## Növbədənkənar prezident seçkiləri yeni reallığa keçidi təmin edən demokratik imkandır

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Parlamentin Sədri əvvəlcə dekabrın 15-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin genişləndirilmiş iclasından danışaraq dedi ki, ölkəmizin ictimai-siyasi həyatı üçün son dərəcə böyük əhəmiyyətə malik qərar qəbul edildi. YAP-ın Sədri İlham Heydər oğlu Əliyev gələn il fevralın 7-nə təyin edilmiş prezident seçkilərində partiyadan namizəd göstərilib. Bu qərarın Azərbaycan xalqının arzu və istəyini ifadə etdiyini diqqətə çatdıran S.Qafarova dedi ki, dünya miqyaslı siyasi və dövlət xadimi olan Prezidentimiz İlham Əliyev ölkəmizə heyrətamiz uğurlar gətirən fəaliyyəti ilə xalqımızın dərin hörmət və məhəbbətini qazanıb.**



Qeyd edildi ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət konsepsiyası yeni tarixi şəraitdə yaradıcı surətdə davam etdirilmiş və daha da zənginləşdirilmişdir. Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına qoşulmuş, bölgədə söz sahibinə çevrilmişdir. Prezident İlham Əliyev Azərbaycanın müzəffər sərkərdəsi kimi adını tarixə həkk etmişdir. Onun siyasi-diplomatik və hərbi-strateji məharəti sayəsində 44 günlük Vətən müharibəsi və bir günlük antiterror tədbirləri Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulması ilə nəticələnmişdir. Dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpa olunması xalqımızın milli qürurunu özünə qaytarmışdır.

Azərbaycanın müasir tarixinin son iyirmi ilinin cəmiyyət və dövlət həyatının bütün sahələrində davamlı yeniləşməsi, sürətli sosial-iqtisadi inkişafı, möhkəm ictimai-siyasi sabitlik və tərəqqisi, milli qüruru, həmrəylik və birliyi, gələcəyə sonsuz inam anlayışları ilə bağlı olduğunu vurğulayan S.Qafarova əminliklə dedi ki, Prezident İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə, dövlətçilik təfəkkürü və idarəçilik məharəti ölkəmizin müstəqil inkişaf yolu ilə bundan sonra da inamla irəliləməsini təmin edəcək.

Cari məsələlərin müzakirəsi zamanı deputatlar YAP-ın qərarının onların ürəyincə olduğunu bildirdilər. Qeyd olundu ki, növbədənkənar prezident seçkiləri sağlam siyasi rəqabət şəraitində yeni reallığa keçidi təmin edən demokratik imkandır.

Sonra parlamentin Sədri iclasın gündəliyinə 27 məsələnin daxil edildiyini bildirdi.

Gündəlikdəki birinci məsələni – “Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı” Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqdim etdi. O, ölkədə gender bərabərliyi haqqında məlumat verdi və bu istiqamətdə görülən işlərdən danışdı. B.Muradova, həmçinin erkən nikahlardan söhbət açdı. Dedi ki, erkən nikahların dinamikasında nisbi artım var. 269 erkən evliliyin qarşısı alınıb. Bu istiqamətdə problemlərin aradan qaldırılması ilə bağlı təhlil hazırlanıb. Bunun nəticəsi də onu deməyə əsas verir ki, 18 yaşdan aşağı ailə qurmağa icazə ilə bağlı istisna halı aradan qaldırmağa dəstək verməliyik.

Hesabata əsasən, Azərbaycanda 2022-ci ildə Daxili İşlər Nazirliyinə məişət zorakılığı ilə bağlı 9 min 864 müraciət daxil olub. Qeydə alınmış cinayətlərin ümumi sayı 1175, xəsarət alan qadınların sayı 1132 nəfər olub. 2022-ci ildə ailə məişət münaqişələri və qısqanclıq zəminində qadınlara qarşı törədilmiş ölümlə nəticələnən cinayət hadisələrinin sayı 2021-ci illə müqayisədə artıb. B.Muradovanın sözlərinə görə, məişət zorakılığı cinayətləri çox vaxt aşkar edilmənmiş qalır və hüquq-mühafizə orqanlarına məlum olmur. Bunun fəsadları isə çox ağır olur. Respublikada məişət zorakılığı ilə mübarizəyə dair milli fəaliyyət planı təsdiqlənib. Bunların da icrasından irəli gələn məsələlərdən biri qanun layihəsinin təkmilləşdirilməsidir. Gələn ilin dövlət büdcəsində ailə, qadın və uşaq hüquqlarının qorunmasına ayrılan büdcə 2 faiz artıb.

Müzakirələrdən sonra illik hesabat yekdilliklə qəbul edildi.

Sonra “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və ya konsulluq əməkdaşlarının ailə üzvlərinin ödənişli əmək fəaliyyətinə cəlb edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə” qanun layihəsi müzakirəyə çıxarıldı. Sənədin təsdiqindən sonra “Prokurorluq haqqında” Qanuna dəyişiklik layihəsi birinci oxunuşda təqdim edildi. Dəyişikliyə əsasən, prokurorluq işçiləri ilə yanaşı prokurorluq orqanlarının digər əməkdaşlarının da sosial müdafiəsi gücləndiriləcək, maddi-texniki bazası möhkəmləndiriləcək.

Gündəlikdəki digər qanun layihələri də müzakirə olunaraq müvafiq qərarlar qəbul edildi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

## MSK-nın sədri ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri ilə görüşüb

**Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov dekabrın 19-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri ilə görüşüb.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən verilən məlumata görə, MSK-nın sədri missiya nümayəndələri Martina Barker-Çiqanikova və Qoran Petrovu salamlayaraq görüşdən məmnunluğunu bildirib.

M.Pənahov MSK-nın nüfuzlu beynəlxalq təşkilatlar və onların müxtəlif qurumları ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini, əməkdaşlığa daim açıq olduğunu vurğulayıb və qeyd edib ki, beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycanda seçki praktikasının daha da təkmilləşdirilərək hazırkı səviyyəyə yüksəlməsinə mühüm töhfələr verib.

Səmimi görüşə görə minnətdarlıqlarını ifadə edən ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri ölkəmizin seçki sistemi və seçki komissiyalarının fəaliyyət prinsipləri, seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı görülən işlər, habelə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası prezidenti seçkilərinə hazırlıqların gedişi ilə maraqlanıblar.

Qonaqların suallarını cavablandıran sədr M.Pənahov qarşıdan gələn seçkilərin yüksək səviyyədə hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlardan danışıb, nəzərdə tutulan genişmiqyaslı layihələri nümayəndə heyətinin diqqətinə çatdırıb, eləcə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində seçki məntəqələrinin yaradılması və səsvermənin təşkili barədə onları məlumatlandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***



# İflasa məhkum “özfəaliyyət” dalğası

## Cənubi Qafqazda baş verən pozitiv siyasi transformasiyalar bəzi qüvvələrin pərdəarxası oyunlarına səbəb olub

*(əvvəli 1-ci səhifədə)*

### Dirijor eyni, notlar fərqlidir

Əslində Ermənistanın üzərindən təşkil edilən bu ideoloji oyunların bir mərkəzdən idarə olunduğu şübhəsizdir. Xüsusilə, son vaxtlar Fransada müxtəlif ranqlı siyasilərin, merlərin antitürk, antirus, antimüsəlman xarakterli, COP29-un



Bakıda keçirilməsinin əleyhinə çağırışları eşidilməkdədir. Azərbaycanı dünyaya riskli, təhlükəli obrazda, qorxulu simada təqdim etməyə, xof yaratmağa çalışırlar. Əlqərəz, bu qüvvələrin özlərinin qorxduğu isə, guya, Türkiyə, Azərbaycan və Rusiyanın birləşib Ermənistanı sıradan çıxaracaqları və onların bölgədəki maraqlarına sarsıdıcı zərbələr endirəcəkləri “perspektivi” ilə bağlıdır.

Bu təxribatçı ideoloji xora öz səslərini qatanlar Ermənistanın içində də var. Hayların yarırəsmi “NEWS.am” saytının “Güc amili” verilişində müzakirə olunan mövzuya və səslənən fikirlərin mahiyyətinə diqqətlə vardıqda həmin niyyətin konturlarını sezmək elə də çətin deyil. Onlayn debatda politoloq Aleksandr İskəndaryan deyir ki, Azərbaycandan Türkiyəyə yol mövcuddur və Bakı enerji daşıyıcılarını Gürcüstan üzərindən rahat şəkildə Türkiyəyə ixrac edir. Burada Ermənistana ehtiyac duyulmur və buna görə də Zəngəzur dəhlizi iqtisadi deyil, siyasi layihədir: “Ankaranın nöqteyi-nəzərindən Ərdoğanın mövqeyi kifayət qədər rasionaldır. Ona Cənubi Qafqaza daxil olmaq və rəsmi Bakının tam və mütləq dəstəyi ilə digər oyunçuları buradan sıxışdırıb çıxarmaq lazımdır. Azərbaycan Türkiyə ilə bir yerdə, Gürcüstan daxil olmaqla, bütövlükdə bölgəni rahat həzm edəcəyi “sendviçə” çevirməyə çalışır. Bu mənada, Ermənistana təzyiqlər tamamilə başadüşüləndir”.

Daha çox Cənubi Qafqazda cərəyan edən hadisələrin mahiyyətindən xəbərsiz beynəlxalq ictimai rəyə hesablanan yeni “ideoloji özfəaliyyət dalğası”na rəvac verənlər üçün TDT, Turan xofu, “pantürkizm təhlükəsi” də gündəmdədir.

### Daha praqmatik münasibətlər

Rusiya–Ermənistan münasibətlərinin möhkəmlik sınağına birinci dəfə çəkilmədiyini bəyan edən Rusiya XİN Beynəlxalq Tədqiqatlar İnstitutu Avro-atlantik təhlükəsizlik mərkəzinin aparıcı elmi əməkdaşı Sergey Markedonov “Güc amili”nin tribunasında Rusiya–Azərbaycan münasibətlərinə kölgə salmağa hesablanmış açıqlamalar verib. Sözünün əvvəlində İrana, Yaxın Şərqə vacib çıxış yolunu oynayan Ermənistanın Rusiyaya lazım olduğuna əminliyini ifadə edən S.Markedonov Moskvanın irəli apardığı Böyük Avrasiya layihəsində də Ermənistanı mühüm tərəfdaş kimi gördüyünü deyib. Rusiyalı diplomat sonra auditoriyaya belə bir sual ünvanlayıb: “Kim deyir ki, Azərbaycan həmişə Rusiyayönümlü olaraq qalacaq və Qarabağa görə Moskvaya loyal münasibət bəsləyəcək?”. Suala politoloq özü cavab verib: “Sadəcə olaraq Bakı hesab edir ki, Moskva Azərbaycana münasibətdə, gec də olsa, düzgün mövqe tutub”.

Hakimiyyət düşərgəsində təmsil olunmasına baxmayaraq, rəsmi Moskvanın Azərbaycan və Türkiyəyə münasibətindən fərqli mövqe sərgiləyən Markedonov ikibaşlı fikirləri ilə diqqəti çəkib: “Ermənistanla bağlı belə bir sual ortaya çıxır: məgər Fransa silahı Qarabağı qaytarmağa kömək edəcək və ya Qərb buna hansısa təminatı verə bilər? Axı, Qərb göstərdi ki, o, belə bir seçim etməyə hazır deyil və bu seçimi heç vaxt etməyəcək. Əgər məhz Qərblə qarşıdurma səbəbindən Moskvanın üzünü daha çox Türkiyə və Azərbaycan tərəfə çevirməsinə görə həmin Qərbin Ermənistanı dəstəkləyəcəyinə ümid var idisə, indi bu da olmayacaq. Aydındır ki, Rusiya–Ermənistan münasibətləri bir də sovet dönəminin inersiyası, yüksək gözləntilər səviyyəsinə qayıtmayacaq. Bir qədər praqmatik olsa da, hər halda davam edəcək”.

İndi isə həmin siyasi kontekstdə Rusiyanın tanınmış politoloqu, Cənubi Qafqaz üzrə ekspert, “PolitRus” ekspert-analitik şəbəkəsinin rəhbəri Vitali Arkovun şərhini diqqətinizə çatdırırıq: “Putin və Əliyev görüşlərinin və qərarlarının təhlili onların bir-birinə etimadından və dərin hörmətindən xəbər verir. Vladimir Putin və İlham Əliyev həmvətənlərinin inanılmaz dəstəyi və etibarına sahibdir. Hər biri həqiqətən milli liderdir və gənc nəsil üçün örnəkdir. Milli sevgi həm də xalqlarımız üçün vacib olan tarixi ədalətin bərpası, ata-baba torpaqlarının qaytarılması ilə şərtlənir. V.Putin rus xalqının, İ.Əliyev isə Azərbaycan xalqının bəlkə də ən böyük arzusunu reallaşdırdı. Ona görə də rusların və azərbaycanlıların seçimi müdrik və məntiqlidir”.

### Qafqazlıların sözü bir olarsa...

“Özfəaliyyət xoru”nun hədəflərindən biri də Gürcüstandır. Daha doğrusu, onun Azərbaycan və Türkiyə ilə artıq strateji tərəfdaşlığa çevrilmiş münasibətləri. Məhz Tbilisinin Bakı və İrəvan arasında sülhməramlı təşəbbüsləri özünün konkret nəticələrini vermiş oldu. Bu barədə parlamentdə danışan Baş nazir İrakli Qaribaşvili Gürcüstanın bölgədəki partnyorları – Azərbaycan, Ermənistan və Türkiyə ilə sıx dostluq əlaqələri saxladığını xüsusi olaraq vurğulayıb: “Biz, sözsüz ki, regionda uzunmüddətli sülhün və sabitliyin bərqərar olmasında maraqlıyıq və Gürcüstan bu məqsədə çatmaq üçün mühüm töhfəsini verməkdədir”.

Üç qonşu ölkənin baş nazirlərinin intensiv səfərlərini xatırladan Qaribaşvili Türkiyə ilə bərabər strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərini bundan sonra da yüksək səviyyədə davam etdirəcəklərinə əminliyini ifadə edib. Yəni, Azərbaycan Prezidenti İlham Əliyevin bir il əvvəl irəli sürdüyü “Qafqaz evi” ideyası artıq gerçəkləşmək yolundadır. Ortadakı yeganə sual İrəvanın da siyasi iradə göztərərək, bu evin qapısından içəri daxil olması məsələsidir. Ankaranın mövcud istiqamətdə atdığı real addımları göz qabağındadır. Zəngəzur dəhlizinin həyata keçirilməsi ilə Azərbaycanla Türkiyə arasında güclü kommunikasiya əlaqəsinin yaranacağını söyləyən qardaş ölkənin Nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu bu layihənin əhəmiyyətini xüsusi olaraq vurğulayıb: “Bu dəhlizlə qardaş Azərbaycanla ölkəmiz arasında birbaşa əlaqə təmin ediləcək. Eyni zamanda, həm Azərbaycan, həm türk respublikaları ilə, həm də Uzaq Şərqlə birbaşa marşrut yaranacaq. Türkiyə dəmiryolu xətlərini Zəngəzur dəhlizinə qədər genişləndirir”. Onu da qeyd edək ki, Türkiyənin dəmiryolu şəbəkəsi 13 min 919 kilometrdən 17 min 11 kilometrədək genişləndiriləcək. Bununla bağlı layihələr tamamlanmaq üzrədir. Həmçinin, 2 min 452 kilometrlik yeni xətlər üçün yol xəritəsi də hazırlanıb.

Beləliklə, yeni “özfəaliyyət” dalğasına start verənlərin əsl niyyəti və nəyə can atdıqları bizə məlumdur. Onlara Cənubi Qafqaz bölgəsində davamlı gərginlik lazımdır. Əgər gərginlik varsa, deməli, kənar müdaxiləyə də ehtiyac yaranacaq. Qərbin ayırdığı yeni resurslardan bəhrələnərək startı verilən bu antitürk, antirus kampaniyası heç bir nəticə verməyəcək. Çünki sübuta, arqumentə, eləcə də sağlam məntiqə söykənməyən bütün fəaliyyət elə başlanğıcdan iflasa məhkumdur.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

**Hazırda biz həm Qərbdə, həm də Rusiyada Qərbin yedəyinə qoşulmuş qüvvələrin özfəaliyyət institutlarının, çeşidli qondarma təsisatlarının fəallaşma dalğasını müşahidə edirik. Bu fəallıq, ilk növbədə, birbaşa Bakı və İrəvan dialoqunun nəticəsində iki məsələnin həllini tapmasından sonra başlayıb. Yəni, hərbi əsirlərin qarşılıqlı mübadiləsi və BMT-nin COP29 Sammitinin Bakıda keçirilməsi ilə bağlı razılaşma bəzi qüvvələri xeyli əndişələndirib. Müxtəlif məkanlardan eşidilən və hərdən vahid xorda birləşən bu solo ifalar yanaşı səslənəndə, “kakofoniya effekti” yaranır. Sanki bir dirijor çubuğu ilə hərəkətə gələn bu “ifaçılar” səhnədə fərqli notlara köklənirlər.**

**İkitərəfli format özünü doğrultdu. Amma kənar vasitəçilər canfəşanlıq edirlər ki, əgər biz olmasaq, heç bir məsələ öz həllini tapmaz. Onlar hətta indiki məqamda da “böyüklük inhisarını” bölüşmək istəmirlər. Amma Bakı və İrəvan öz aralarında razılığa gələ bildilər və iki vacib məsələ üzrə dil tapdılar. Bu, çox yaxşı bir başlanğıc, həm də Ermənistan rəhbərliyinə özgüvən mesajıdır. Düzdür, İrəvan isteblişmentində çoxtirəlik var. Əsas məsələ odur ki, Nikol Paşinyan gözəl bilir ki, bu prosesdə Qərbi heç də erməni xalqının taleyi düşündürmür. Onların məqsədi Ermənistan ərazisindən platsdarm kimi istifadə edib Qafqaza yerləşsinlər. Qondarma mülki missiya adı altında bölgəyə kimlərin gəldiyini bilirik. Hərbçilər, jandarmeriyalar, kəşfiyyatçılar. İndi saylarını artırmağa hazırlaşdıqları həmin “hərbi səhra missiyasının” əsl məqsədi tərəfləri birbaşa danışıqlardan yayındırmaqdır. Ona görə müharibə riskini şişirdilmiş formada təsvir edir, Ermənistan rəhbərliyinin gözünü pərdələməyə çalışırlar.**

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

**Qərbdə, eləcə də Rusiya məkanında həmişə Türkiyəyə qarşı qüvvələr olub, bu gün də var. Onlar “pantürkizm” kimi tezislərdən istifadə edərək, məqalələr yazıblar, kitablar çap etdiriblər. Hazırda Rusiyanın Cənubi Qafqaz siyasətinə nəzər salsaq, görərik ki, elə həmin Gümrüdəki hərbi hissəni yalnız Ermənistanı qorumağa görə yaratmamışdı. Bunun digər geosiyasi səbəbləri vardı. Məqsəd bölgədə özünün hərbi mövcudluğunu qoruyub saxlamaq idi. Azərbaycan 1993-cü ilin fevralında Rusiya qoşunlarını ərazisindən çıxardı, martın sonları isə Kəlbəcəri itirdi.**

**Amma Ermənistandakı hərbi baza Moskvanın ən strateji nöqtəsi sayılırdı.**

**Sergey Markedonovun efirdə o tezisləri səsləndirməsi heç də təsadüfi deyil. Beləleri də var. Amma Ermənistanda artıq anti-Rusiya trendlərinin qarşısını almağa çalışırlar. Bu zaman belə bir məntiqə söykənirlər ki, Rusiya birdən bölgədə zəifləsə, yaxud da Azərbaycanla tam yaxınlaşsa, bu, Türkiyənin güclənməsi demək olacaq.**

**Kremlin Cənubi Qafqazdakl strateji hədəfləri yüz, iki yüz il əvvəl formalaşıb. Həmin ənənə bu gün də davam etdirilir. İndi Ermənistan öz oyununu aparmağa çalışsa da, Moskva üçün Türkiyə ilə əməkdaşlıq çox vacibdir. Yaxın dövrlərdə də biz bu əməkdaşlıq prosesini müşahidə edəcəyik. Düzdür, Yaxın Şərqdəki gərginlik ocaqlarına yanaşmada Ankara ilə Moskva arasında fikir ayrılığı var. Yəni, orada fərqli tərəflərin dəstəklənməsi xətti davam etdirilsə də, müəyyən kompromislərə getmək meyilləri də olacaq.**

**Düşünürük ki, Cənubi Qafqazda köklü dəyişikliklər baş verməyəcək. Bu zaman 2024-cü ildə ABŞ-da prezident seçkiləri, 2025-ci ildə Qarabağda Rusiya sülhməramlılarının qalma müddətinin başa çatması, Moskvanın Gürcüstanla münasibətləri kimi amilləri də nəzərə almalıyıq.**

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Dekabrın 19-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Əvvəlcə Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin təsdiq olunması məsələsinə baxılıb.

Bildirilib ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülüb. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 16-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən MSK-ya təqdim olunub. Bununla əlaqədar Seçki Məcəlləsində nəzərdə tutulan müddətdə və qaydada müvafiq araşdırma aparılıb, irəli sürülmüş namizədliyin təsdiqlənməsi üçün əsasların olduğu müəyyən edilib.

Komissiya 2024-cü il fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsini təsdiq edib.

Sonra sözügedən seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən təqdim olunmuş səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qeydə alınıb.

Media nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

***XQ***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 16-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Tahir Yaqub oğlu Budaqov – Yeni Azərbaycan Partiyası sədrinin müavini, Mərkəzi Aparatının rəhbəri;

Əli Cavad oğlu Əhmədov – Yeni Azərbaycan Partiyası sədrinin müavini.

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Əhliman Safalan oğlu Tağıyev – Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı rəhbərinin müavini.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Aşur Natiq oğlu Bədəlov 22 saylı Nəsimi–Yasamal, Tamerlan Nazim oğlu Qurbanov 55 saylı Siyəzən–Quba–Xızı, Qoşqar Qəzənfər oğlu Məmmədov 110 saylı Balakən, Ramiz Əhmədiyyə oğlu Əsədov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Nizami Fərman oğlu Novruzov 9 saylı Binəqədi ikinci, Anar Nüsrət oğlu Ələsgərov 22 saylı Nəsimi–Yasamal, Əsmər Abuzər qızı Ağayeva 55 saylı Siyəzən–Quba–Xızı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüququ üzvü təyin edilsinlər.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Vaşinqton – Bakı yaxınlığı barədə “fikir” İrəvana nə üçün lazımdır?

## Erməni siyasi dairələri Azərbaycanın Rusiya və İranla münasibətlərini pozmaq barədə plan qurur

*(əvvəli 1-ci səhifədə)*

Əvvəla, A.Xaçikyan deyir ki, rəsmi Bakı Qərb platformalarında danışıqlar aparmaq istəmir. Halbuki, məsələ heç də danışıqlar üçün hansı platformanın seçilməsində deyil. Əsas olan işin faydalılığıdır. Bəli, Azərbaycan səmimiyyət görmədikdə, faydasız işlərə vaxt sərf etmir. Ölkəmiz, eyni zamanda, nəzərə alır ki, danışıqlar xətrinə danışıq aparmaq məntiqi çox zaman Qərb dairələrinin sülh gündəminə uyğun gəl-



məyən məsələləri irəli sürmələri ilə nəticələnir. Buna görə də tədbirli davranır və davranmaqda haqlıdır.

Bəs, nəyə görə A.Xaçikyan Qərbin yalnız mənəvi qınaq tədbirləri ilə məhdudlaşdığını və Azərbaycanın bu səbəbdən danışıqlara can atmadığını vurğulayır? Aydındır ki, o, mövcud duruma görə Qərbi ittiham etməkdir. Ancaq Xaçikyan özünün ittihamçı ampluasında bəzi həqiqətləri açıqlayır. Yəni, erməni siyasi icmalçı “Bakı İrəvanla danışıqlar aparmaq niyyətindən uzaqdır və uzaqlığını davam etdirmək üçün hər cür imkanlara malikdir” fikrini irəli sürməklə, həm xarici dairələri fəaliyyətsizlikdə günahlandırır, həm də ilk baxışdan özü də fərqinə varmadan Ermənistan hakimiyyətini haqqında söz açdığımız qəflət yuxusundan ayıldır. Amma İrəvan ayılmır. Daha doğrusu, Ermənistan iqtidarı başqa mövqedədir. Reallıqları görməkdən uzaqdır, yeni reallıqlar formalaşdırmaq “əzmindədir”.

Beləliklə, A.Xaçikyan vurğulayır ki, bütün ciddi ekspertlər yekdilliklə əmin edirlər: Birləşmiş Ştatlar öz maraqlarının təminat faktoru kimi, müstəsna olaraq Azərbaycanı görür. Onun sözlərinə görə, bir neçə gün əvvəl “Foreign Policy Focus” jurnalında birbaşa olaraq Azərbaycan nefti və qazının ABŞ üçün Ermənistandan daha vacib olduğunu vurğulayan məqalə yayımlanıb. Həmin məqalədə Vaşinqtonun məramının regionu Rusiya və İranın təsirindən çıxarmaq olduğu əksini tapıb və vurğulanıb ki, ABŞ məhz bunun üçün Azərbaycanı Qafqazda əsas müttəfiqi kimi görür.

Erməni politoloq onu da bildirib ki, sözügedən məqalədə Azərbaycanın başçılıq etdiyi Qafqazda ABŞ-ın hökmranlığının qurulacağı açıqlanıb. O, Amerikanın bir çox digər media nəşrlərinə istinad edərək də Birləşmiş Ştatların Bakı ilə müttəfiqlik perspektivlərini gördüyünü vurğulayıb. Xaçikyan, eyni zamanda, deyib ki, Fransa mediası da Qərbin Ermənistana real dəstək perspektivinin olmadığından yazır. Politoloqun bildirdiyinə görə, Avropa regiondakı maraqlarının Azərbaycanın neftinin və qazının üzərində olduğunu açıq şəkildə ortaya qoyub. “Əgər Ermənistandakı təbliğat qrupu bunu oxuya bilmirsə, biz kömək edə bilərik. Onlar özlərini qərbyönlü adlandırırlar, lakin Qərbdə nə baş verdiyindən xəbərləri yoxdur”.

Əlbəttə, A.Xaçikyanın söylədiklərində müəyyən reallıq payı var. Məsələ burasındadır ki, hazırkı məqamda Qərbə Ermənistana görə Azərbaycana qarşı çıxmaq sərfəli deyil. İrəvanın Qərbə verəcəyi heç nə yoxdur. Əksinə, hazırda Ermənistan ikinci üçün, bir növ, yükdür. Özü də ağır yük.

Elə təəssürat yaranır ki, 2018-ci il inqilabı, obrazlı ifadə etsək, Qərb tərəfindən Ermənistan adlı evin qapısından və pəncərəsindən deyil, bacasından içəri salınıb. İçəri isə üfunət qoxuduğundan, inqilabın havası çatmır və boğulur.

Üstəlik, inqilabın mahiyyəti fərdi erməni avantürizmini inkar etsə də, hazırkı dövrdə avantürizm Qərb dəyərlərinə meydan oxumaqdadır. Hər halda, Ermənistanda 2018-ci il siyasi dəyişikliklərini reallaşdıranlar hakimiyyətə gətirdikləri baş nazir Nikol Paşinyana “Qarabağ Ermənistandır nöqtə” bəyanatını verməklə bağlı hansısa təlimat verməmişdilər. Amma erməni hökumət rəhbəri bunu etdi. Nəticədə Qərbin inqilab ritorikasına yad ab-hava yarandı ki, hazırda Ermənistanda baş verənlər həmin ab-havanın təsirindən başqa bir şey deyil.

Bəli, Ermənistan hakimiyyətinin tədbirsiz, naşı davranışı səbəbindən inqilabın gələcəyi də sual altındadır. Bu, öz yerində. İndi isə gələk, əvvəldə bildirəcəyimizi vurğuladığımız məqama. Yuxarıda diqqətə çatdırdıqlarımızla yanaşı, onu da deyək ki, hazırda Azərbaycanın Rusiya ilə müştərək şəkildə Ermənistandakı demokratiyanı sarsıtmaq üçün fəaliyyətə keçdiyindən söz açan siyasi qüvvələr mövcuddur. Onlar irəli sürdükləri ritorikanın Qərbin anti-Azərbaycan davranışını körükləmək baxımından real mənzərə formalaşdırmadığının fərqindədirlər. Ona görə başqa yola əl atırlar. Hesab edirlər ki, ABŞ–Azərbaycan yaxınlığı məsələsini gündəmə gətirməklə, özləri üçün indiki arzuolunmaz sayılan vəziyyətə təsir göstərə bilərlər. Onların fikrincə, belə bir yaxınlığı ön plana çəkmək Rusiyanı, habelə İranı qıcıqlandıra bilər. Deməli, əsas hədəf Bakı–Moskva və Bakı–Tehran əlaqələrinə zərbə vurmaqdır. Əslində, A.Xaçikyan kimilər də eyni məkrli vəzifəni reallaşdırmaq üçün ortaya düşüblər.

Sonda bir daha illüziya barədə. Bəli, bütün bu sayaq fikirlərin, söz oyunlarının və digər məkrli davranışların Ermənistan hakimiyyətini ümidlə “silahlandırdığı” aydındır. Baş nazir N. Paşinyanın administrasiyası nə qədər sülhdən danışsa da, həm beynəlxalq aləmdəki anti-Azərbaycan ritorikası ilə, həm də müxtəlif ekspert cameəsinin, siyasi dairələrin manipulyativ fikirləri ilə Cənubi Qafqazda, necə deyərlər, suyu bulandırmaq yolu tutur. Baxmayaraq ki, belə yanaşmanın uğursuz nəticələr verdiyi və Ermənistanı daha da ağır vəziyyətə saldığı aşkardır. Görünür, dəryada boğulan özünə saman çöpündən yapışmaqdan başqa heç nə tapmır.

Ən sonda isə onu deyək ki, Azərbaycan hər daim özünün müstəqil xarici siyasət kursuna sadiqdir. Bu kurs, kifayət qədər, incə düşünülmüş mahiyyətə malikdir və özündə kənar təsirlərdən etibarlı müdafiə immunitetini daşıyır. Ona görə də erməni siyasi dairələrinin spekulyativ yanaşmalarının nə Bakının davranışlarına, nə də xaricin ölkəmizlə bağlı sistemli və prinsipial mövqeyinə hansısa təsir göstərməsi mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

KÖŞƏ

# Ermənistanın terrorçu dövlət olduğunu kim dana bilər?

**Ermənistanın terrorçu xisləti hər gün özünü bir daha təsdiq edir. Bunu kim bilməsə də, yaxud etiraf etmək istəməsə də, biz bilirik. Biz Azərbaycan xalqı olaraq erməni terrorunun hər üzünü görmüşük.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Əslində, erməni terrorizmi beynəlxalq aləmdə çox geniş məlumdur. Bəli, bu terroru himayə edən, üstündən keçən, ona zahirdə göz yuman, arxada isə dəstək verən bəzi Avropa dövlətləri də məsələnin mahiyyətinə yaxşı bələddir. Bu ölkələrdən bəziləri onu hətta maliyyələşdirir. Bu da səbəbsiz deyil. Əslində, həmin ölkələr bu bəlanı türk dünyası, o cümlədən, Azərbaycan və Türkiyəyə qarşı silah kimi istifadə edirlər.

Amma Qərbdə erməni terrorizmi haqqında açıq danışan cəsarətli insanlar da yox deyil. Hətta bu mövzuda kitablar yazılaraq yayılıb. Yəni, artıq ox yaydan çıxıb. Artıq bütün dünyada ermənilərin vandal və terrorçu xarakteri haqqında bilməyən yoxdur. Təxminən, 20-25 il əvvəl ABŞ-da yaşamış məşhur tarixçi və yazıçı Samuel Vimsin “Ermənistan: böyük hiylə – terrorçu xristian dövlətinin sirləri” kitabı da bu erməni milli xarakterinin açılıb yayılmasında az rol oynamayıb. ABŞ-da böyük tirajla işıq üzü görmüş kitab, təxminən, 2000-ci illərdə Azərbaycan dilinə də tərcümə edilərək geniş yayıldı.

Azərbaycan Prezidenti İlham Əliyev isə istər Milli Məslisin deputatı və AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olarkən, istərsə də dövlət başçısı olduğu illərdə fəaliyyətinin əsas hissəsini Ermənistanın işğalçılıq, vandallıq və terror siyasətinin ifşasına həsr edib. Uzun illər ərzində o, çıxış etdiyi bütün kürsülərdən bununla bağlı həqiqətləri dünya xalqlarına çatdırıb. Elə 2020-ci ilin şanlı Zəfərlə başa çatmış Vətən müharibəsindən sonra da Azərbaycan lideri işğaldan azad olunmuş ərazilərimizə səfər edərək, ermənilərin törətdikləri dağıntıları dünya ictimaiyyətinin diqqətinə çatdırmış, “bu yerlərdən sanki vəhşi qəbilə keçib”, deyə erməni işğalının faciəli nəticələrini göstərmişdi.

İndi Azərbaycan ərazilərində erməni işğalına son qoyulub. Amma bununla hər şey bitibmi? Xeyr! Azərbaycan artıq 4-cü ildir ki, amansız işğalın nəticələri ilə mübarizə aparır. Vaxtilə Ermənistanın işğalında olmuş ərazilər başdan-başa minalarla doldurulub. Son illərdə 300-dən artıq dinc, günahsız insanımız, o cümlədən, minatəmizləmə işlərində çalışan mütəxəssislər yer altında gizlədilmiş ölüm cuhazlarının qurbanı olub. Minalanmış sahələrin təmizlənməsinə nə qədər qüvvə cəlb edilmiş olsa da, onların tamamilə zərərsizləşdirilməsinə hələ on illər gərəkdir.

Bu, öz yerində. Biz hələ torpağın altındakı minalardan danışırıq. Ermənistana bu günə qədər himayədarlıq edən böyük dövlətlər buyurub bu ölkə ordusunun hər gün aşkar edilən yeni hiylələrinə baxsınlar. Bu işğalçı, terrorçu ordunun qəddarlığı o həddədir ki, özlərindən sonra hətta orta məktəb şagirdləri üçün də dəhşətli ölüm üsulları qoyub getməyi unutmayıblar.

Dünən məlum olub ki, Azərbaycanı könüllü tərk edən ermənilər çıxıb gedərkən Xocavənd rayonundakı məktəbdə mina tələsi quraşdırıblar. Bu barədə Azərbaycan ombudsmanının yaydığı məlumat əsasında xəbər tutduq. Ombudsman Səbunə Əliyeva bəyan edib ki, işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatları zamanı dəfərlərlə tələ minalara, improvizə edilmiş partlayıcı qurğulara rast gəlinməsi faktı Ermənistanın azərbaycanlılara qarşı terror siyasətini bir daha təsdiq edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Xocavənddəki məktəbdə partlayıcı tələ qurğusunun aşkarlanması ilə bağlı deyib ki, Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən Xocavənd rayonu Yemişcan kəndi ərazisindəki məktəbdə həyata keçirilən əməliyyatlar zamanı sinif otaqlarının birində yazı masasına yapışqan lent vasitəsilə quraşdırılmış F-1 əl qumbarası aşkarlanmışdır. Bununla yanaşı, daha böyük partlayışın törədilməsi üçün 1 ədəd F-1 əl qumbarası yazı masasının altına da yerləşdirilmişdir. Döyüş vəziyyətinə gətirilərək kəndir vasitəsilə stula və qapının tutacağına bərkidilmiş həmin tələ qurğusunun təhsil ocağında yerləşdirilməsi terrorun məhz dinc mülki əhaliyə qarşı yönəldiyini göstərir.

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq, Ermənistanın dinc əhalinin fundamental insan hüquq və azadlıqlarının kobud pozulması ilə müşayiət olunan cinayət əməllərini şiddətlə qınayır, beynəlxalq təşkilatları bu kimi əməllərə sərt reaksiya verməyə dəvət edirəm”, – deyə Səbinə Əliyeva qeyd edib.

Budur, erməni terrorizminin ən mənfur nümunələrindən biri. Biz indi bu əməli törədənlərə nə ad verək? Və onları qanadları altına alıb qorumaq istəyənlərə, Fransaya, ABŞ-a nə deyək? Axı körpə uşaqların təhsil alacağı bir məktəbdə bu cür əməllər törətməyi özlərinə rəva bilənlər terrorçu olmayıb da, nə olurlar?! Onları himayəsində qoruyanları isə “terroru dəstəkləyən ölkə” adlandırmayıb da, nə adlandıraq?!..

**(əvvəli 1-ci səhifədə)**

# Tomas de Vaalın “qaranlıq əhvalatı”

## *Politoloq regionda yeni müharibə riskinin mövcudluğundan danışarkən nələri nəzərdə tutur?*



Başlayaq ondan ki, ekspertin söylədikləri onun Cənubi Qafqazda sülhlə bağlı elə bir ciddi gözləntisinin olmadığını deməyə əsas verir. Onun sözlərinə görə, Bakı ilə İrəvan arasındakı durum prinsip etibarilə bir il əvvəl olduğu kimidir. Yəni, vəziyyət gərgindir. Gərginliyi şərtləndirən başlıca faktor da anti terror tədbirləri ilə əlaqədardır. T.Vaal mövcud xüsusda bildirir ki, ermənilərin Qarabağı tərk etmələri və ümumən bölgənin itirilməsi böyük hadisədir. Doğrudur, siyasi icmalçı o məntiqə də söykənir ki, Qarabağ ermənisizləşibsə, prinsipcə hər şey bitmiş kimi də sayılmalıdır. Ancaq erməni avantürizmi baxımından bitən heç nə yoxdur.

T.Vaal deyir ki, 2023-cü ildə yeganə pozitiv nəticə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Ermənistan Respublikası Baş nazirinin Aparatının dekabarın 7-dəki birgə açıqlamasıdır. Bu açıqlamanın nəticəsi olaraq tərəflər arasındakı əsir mübadiləsindən bəhs edən politoloq, həmçinin, Ermənistanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycanın namizədliyini dəstəkləməsindən söz açır. Azərbaycanın Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyinə tərəfdar çıxmasını da müsbət məqam olaraq vurğulayır. Onun sözlərinə görə, Bakı nüfuz və möhtərəmliyi sevir. Ona görə də belə jestlər Azərbaycanın hazırkı problemin güc yolu ilə həlli imkanlarını azaldır.

Buna baxmayaraq, T.Vaal bildirir ki, Azərbaycan və Ermənistan arasında nataraz durum qalmaqdadır. Hazırda münaqişənin Qərb tənzimləmə xətti, praktiki olaraq, fəaliyyətsizdir. “Mən yaxın gələcəkdə Bakı ilə İrəvan arasında sazişin imzalanması imkanını görmürəm. Eyni zamanda, beynəlxalq təzyiqlərə baxmayaraq, yeni Ermənistan–Azərbaycan müharibəsi təhlükəsi həmişə mövcuddur”, – deyən siyasi icmalçının fikrincə, yeni müharibə təhlükəsinin reallığa çevrilib-çevrilməməsində başlıca söz sahibi Azərbaycan Prezidenti İlham Əliyevdir.

Əlbəttə, erməni mediası daha çox T.Vaalın sonuncu qeyd etdiyimiz fikrinə fokuslanır, mövcud xüsusda müharibəni başlayacaq tərəf kimi Azərbaycanı qınamaq yönümlü ritorikaya üstünlük qazandırır və bir növ, interpretasiyaya yol verir. Ancaq aydın görünür ki, T.Vaal birbaşa Azərbaycana qarşı köklənmir, ümumi mənzərədən çıxış edir. Əslində, onun dəyərləndirməsi, bütövlükdə sülh prosesindəki ləngimələrə görədir. Sülhə alternativ isə həmişə müharibədir. Deməli, T.Vaal, müharibə qoxulu fikirlər səsləndirən zaman heç də yenilikçi deyil. O da nəzərə alınmalıdır ki, sülh mühitinin olmaması qeyri-müəyyənlikdir. Qeyri-müəyyənliyi isə hər bir tərəfin hadisələri öz baxış bucağından qiymətləndirib hərəkətə keçməsi təbiidir. Əlbəttə, kimin imkanı varsa, daha ciddi hərəkətə keçən də odur.

Əlqərəz, Tomas de Vaal sözügedən proqramdakı çıxışında regional kommunikasiyaların açılmasını da ən aktual məsələ adlandırıb. “Bu, elə bir haldır ki, kommunikasiyaların açılması hər kəs üçün faydalı görünür. Amma indi vəziyyət 2020-ci ilə nisbətən daha mürəkkəbdir və mən nəticə əldə etmək üçün lazımi konsensus görmürəm”, – deyən politoloq onu da bildirib ki, Ermənistanla sərhədin açılması Türkiyənin dövlət maraqlarına uyğun görünür. Qarsla Gümrü arasında və daha sonra Ermənistandan keçməklə Naxçıvana və Azərbaycanın əsas hissəsinə, oradan da Xəzər dənizinə dəmir yolu bağlantısı da həmçinin. Əlbəttə, bu yerdə T.Vaalın “amma görünür, Ərdoğanın (Türkiyə Prezidenti – red.) şəxsi maraqları da var” fikrini hansı prizmadan işlətməsi maraqlıdır. O da maraqlıdır ki, siyasi ekspert Gümrüdən və Sünikdən keçən dəmir yolunun təhlükəsizliyini kimin qoruyacağı məsələsi üzərinə gəlir və bunu mühüm məqam sayır: “Biz “qaranlıq əhvalat” görürük. Ermənistan tərəfi artıq Rusiyanın varlığını istəmir. Azərbaycan isə əksinə, Rusiya təhlükəsizlik qüvvələrinin mövcudluğunda israrlıdır”.

Əlbəttə, T.Vaalın sonuncu fikri ilə razılaşmamaq olar. Məsələ burasındadır ki, rəsmi Bakı Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldakı təhlükəsizliyə cavabdeh qismində Rusiyanı görür, – kimi mütləq məntiqdən söhbət gedə bilməz. Yəni, ölkəmiz məsələni bir qədər fərqli formada qoyur. Azərbaycan iki prinsipi rəhbər tutur: Birincisi, Ermənistanın üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsini. Öhdəlik isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda aydın şəkildə qeyd olunub. Bildirilib ki, sözügedən yolda təhlükəsizlik Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən təmin olunacaq. Nəzərə alaq ki, Ermənistan üçtərəfli sazişə məğlub qismində imza atıb. Hər halda 30 illik işğala görə ölkə nəyisə itirməlidir. İtirmək istəməsəydi, müharibə davam edəcəkdi. İrəvan bu davamiyyətə qatlaşa biləcəkdimi, bu başqa söhbətin mövzusudur.

Məsələnin ikinci qoyuluşu isə budur ki, ölkəmiz Naxçıvana yolu Azərbaycandan Azərbaycana yol kimi dəyərləndirir. Bunu Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilmiş “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumundakı çıxışında da bəyan etdi. Dövlətimizin başçısı bildirdi ki, sözügedən yolun suveren Ermənistan ərazisi kimi qəbullanmasında heç bir problem yoxdur. Başlıca məqam ərazidə gömrük keçid və sərhəd məntəqəsinin olmamasındadır.

Bir daha deyək ki, Prezident İlham Əliyev Azərbaycandan Azərbaycana yol məntiqinin prinsipiallığı üzərində dayanır. Ölkəmizin lideri, hətta məsələni legitim hüququmuz prizmasında dəyərləndirir. Onu da vurğulayır ki, Ermənistan bununla razılaşmadığından, Bakı Naxçıvana yolun İran ərazisindən keçməsinə dair Tehranla razılaşma əldə edib. Prezident İlham Əliyev forumda mövcud istiqamətdə başlanılan işlər barədə də məlumat verib.

Ancaq bütün bunlara rəğmən, dünyada Naxçıvana yolun İran deyil, Ermənistan ərazisindən keçməsini və bu zaman Bakının yox, İrəvanın bildirdiklərinin prinsipial xətt kimi nəzərə alınmasının tərəfdarları olan Qərb dairələri var. Onlar hər vasitəyə əl atırlar. Əslində, T.Vaal da həmin dairələrin irəli sürdükləri xətt ətrafında siyasi gəzişmələr gerçəkləşdirməkdədir. Bu səbəbdən ona belə bir sual ünvanlanır: Moskva ilə Bakı arasında Rusiyanın Sünikdə yeni varlığı müqabilində, Kremlin Qarabağdakı mövcudluğunu itirməsi ilə bağlı sövdələşmə olubmu?

Əlbəttə, politoloq bu təxribatı suala cavab verməkdə ehtiyatlı təsir bağışlayır. Hərçənd, Rusiya–İran–Türkiyə–Qərb–Ermənistan–Azərbaycan xətti üzrə siyasi konfiqurasiyanın mövcudluğunun tərəfdarı kimi çıxış edən de Vall mövcud istiqamətdə də irəliləyiş görmədiyini dilə gətirir və əlavə edir ki, irəliləyiş olmasa, yeni müharibə riski güclənəcək. “Eyni zamanda, mən şəxsən düşünmürəm ki, Azərbaycan bütün Süniki ələ keçirməyə getsin”, – deyə siyasi icmalçı vurğulayır. Onun fikrincə, Moskva və Ankaranın köməyi ilə qoyulan şərtlə razılaşması üçün İrəvana təzyiq göstərilməsi gündəmdədir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizənin ön cəbhəsində

*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, gələn il bütün postsovet məkanında ilk dəfə Azərbaycan Respublikasının mötəbər qlobal tədbirə evsahibliyi edəcəyi ölkəmizin tarixi uğurlarından biri olmaqla, eyni zamanda, beynəlxalq aləmin vahid mövqedən çıxış edərək COP29-un paytaxtımızda keçirilməsinə qərar verməsi respublikamızın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir.

Beynəlxalq birliyin belə bir qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı 155 ölkənin, Qoşulmama Hərəkatına sədrliyi zamanı isə 120 ölkənin dəstəyini qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.



Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini bir sıra digər məqamlar da şərtləndirir. Əvvəla, bu, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olması ilə bağlıdır. Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra ölkəmizin dünyada daha güclü dövlət kimi tanınması da bu məsələdə önəmli rol oynayır. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır. Azərbaycan BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir və Prezident İlham Əliyev adıçəkilən müşavirədə bununla bağlı deyib: "Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir".

Ölkəmizin COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini şərtləndirən amillərdən biri də respublikamızın qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirməsi, Azərbaycanda müasir infrastrukturun mövcudluğu və təhlükəsizliyin ən yüksək səviyyədə təşkili ilə bağlıdır. Bütün bunlarla bərabər, Azərbaycanın ətraf mühitə verdiyi önəm də beynəlxalq aləmin diqqətini çəkir. Bu, statistik göstəricilərdən də aydın görünür. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcmini 35 faizə və 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən "Yaşıl enerji" zonası elan edilib. Eyni zamanda, həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı" şəhərlər, "ağıllı" kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Belə bir tədbir Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizədə həyata keçirdiyi layihələrin beynəlxalq aləmdə tanınmağına və bu sahənin sürətli inkişafına yeni investisiyaların cəlb olunmasına əlverişli imkan yaradır. Respublikamız neft-qaz ölkəsi olmaqla yanaşı, iqlim dəyişiklikləri ilə bağlı çağırışlara da yüksək səviyyədə reaksiya verir. Belə ki, 2030-cu ilə qədər istilik effekti yaradan qazların həcminin ölkəmizdə 35 faizə qədər azaldılması nəzərdə tutulur. O cümlədən, sürətlə bərpaolunan enerji sahələri yaradılır və 2030-cu ilə qədər istehsal edilən elektrik enerjisinin 30 faizinin "yaşıl enerji" üzərinə keçirilməsi ilə bağlı könüllü öhdəlik diqqətdə saxlanılır. Bu məqsədlə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələr davamlı olaraq reallaşdırılır. Ölkəmizdə "yaşıl enerji" sahələrinin genişləndirilməsi ilə əlaqədar təcrübəsi olan dünyanın aparıcı şirkətləri ilə sazişlər imzalanır.

Göründüyü kimi, neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə– bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

Prezident İlham Əliyev dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının– COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirədə COP29-un gələn il respublikamızda reallaşması qərarını ölkəmizin növbəti böyük uğura imza atması, eyni zamanda, dünya dövlətlərinin Azərbaycana bir daha böyük etimad və hörmət göstərməsi kimi dəyərləndirib. Dövlətimizin başçısı daha sonra deyib: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq".

Ölkə rəhbərinin müşavirədəki nitqində COP29-un indiyədək respublikamızda keçirilən tədbirlərlə müqayisəyə gəlmədiyi, hətta Avropa Oyunlarından çox diqqət çəkəcəyini də diqqətə çatdırıb: "Həmin vaxt Azərbaycana 5 min idmançı və onları müşayiət edən, təqribən, 3 min qonaq gəlmişdi. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

Beləliklə, COP29 sülhə, əmin-amanlığa yol açır, rifaha xidmət edir. Azərbaycan ilə Ermənistan arasında vasitəçisiz, birbaşa kommunikasiya əsasında COP-la bağlı əldə edilmiş razılaşma bu qlobal tədbirin sülhpərvər mahiyyətini bir daha nümayiş etdirir. COP mövzuları bəşəriyyəti, müxtəlif dövlətləri, dövlətlər qrupunu, düşərgələri ümumi məqsəd naminə səfərbər edən, birləşdirən qüvvədir. COP həmrəylik, qlobal məsuliyyəti bölüşmək və əməkdaşlıq platformasıdır. Bir sözlə, COP29 beynəlxalq konfrans kimi məsuliyyətli bir tədbirdir. Məsələ ilə bağlı ilk iclasın dövlətimizin başçısının rəhbərliyi ilə keçirilməsi də bu fikrin parlaq ifadəsidir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Hikmət Hacıyev Britaniya Baş nazirinin müşaviri ilə görüşdü

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniya Baş nazirinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Tim Barrou ilə görüşüb.**



"Qafqazinfo" xəbər verir ki, bu barədə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov "X" hesabında paylaşım edib.

"Azərbaycan və Böyük Britaniya arasında mükəmməl ikitərəfli münasibətlər, eləcə də genişspektrli regional məsələlər, Azərbaycan–Ermənistan münasibətlərində irəliləyiş və Azərbaycanın qarşıdan gələn iqlim sammitinə – COP29-a evsahibliyi etməsi barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Böyük Britaniyanın Milli Təhlükəsizlik müşaviri Tim Barrou arasında çox məhsuldar və canlı söhbət baş tutdu", – paylaşımda deyilir.

***XQ***

# "Dünya bizə inanır və etibar edir"

**Bu barədə Xarici İşlər naziri Ceyhun Bayramov Azərbaycan Xarici İşlər Nazirliyi və ADA-nın birgə təşkilatçılığı ilə beynəlxalq münasibətlər, diplomatiya sahələrində təhsil alan tələbələrin məlumatlılığının artırılması məqsədi ilə diplomatiya həftəsində çıxışı zamanı bildirib.**



"Azərbaycan Qoşulmama Hərəkatına (QH) sədrliyi nümunəvi sədrlik adlandırılıb. Ölkəmizin QH-yə sədrliyi dövründə bu təşkilata marağın artması, yeni üzvlərin müşahidəçi statusu alması, onun nəzdində yeni institutların yaradılması, 120 ölkə tərəfindən Azərbaycanın sədrliyinin bir il də uzadılmasına razılıq verilməsi uğurlu sədrliyin nümunəsidir", – nazir vurğulayıb.

Xarici işlər naziri daha sonra xatırladıb ki, bu günlərdə daha bir beynəlxalq əhəmiyyətli tədbirin –COP29-un ölkədə keçirilməsinə razılığın verilməsi Azərbaycanın etibarının artması, ölkənin nüfuzunun güclənməsinin sübutudur.

***XQ***

# "Yaşıl enerji"dən "Sıfır emissiya"ya doğru

## *Britaniya ekspertləri Azərbaycanın bu yöndə uğurlarını yüksək qiymətləndirirlər*



**Londondakı Kings Kollec Universitetində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il Azərbaycanda keçiriləcəyinə həsr olunan müzakirələr təşkil edilib. Bu barədə Azərbaycanın Böyük Britaniyadakı səfirliyindən bildirilib.**

Qeyd olunub ki, Britaniyada nəşr olunan "Diplomat" jurnalı, Siyasət İnstitutu və Sıfır Emissiya Missiyası üzrə Koalisiyanın birgə təşkilatçılığı ilə keçirilən tədbirdə bu ölkənin tanınmış siyasətçiləri və iqlim sahəsində aparıcı ekspertləri, o cümlədən keçmiş Baş nazir Tereza Mey, Enerji Təhlükəsizliyi və Sıfır Emissiya üzrə Kölgə naziri Ed Miliband, Britaniyanın keçmiş Biznes, Enerji və Sənaye naziri Kris Skidmor, Londondakı diplomatik korpus nümayəndələri, akademik dairələr iştirak ediblər.

Açılışda çıxış edən Tereza Mey "yaşıl enerji"nin ekoloji və iqtisadi faydalarından bəhs edib və ölkəsinin sıfır emissiya məqsədi istiqamətində gördüyü işlər və planlarından söhbət açıb. Xanım Mey ölkələri COP28-də qəbul olunmuş qərarları vaxt itirmədən icra etməyə çağırıb.

Tədbir çərçivəsində "Gələcək COP tədbirləri üçün ambisiyalar nələrdən ibarət olmalıdır?" mövzusunda paneldə çıxış edən Azərbaycan Respublikasının Britaniyadakı səfiri Elin Süleymanov bildirib ki, Azərbaycanın COP29-a evsahibliyi etməklə bağlı namizədliyini Şərqi Avropa qrupundakı digər ölkələrlə yanaşı, Ermənistanın da dəstəkləməsi tarixi bir hadisədir. Bunun iki ölkə arasında birbaşa ikitərəfli danışıqlar nəticəsində mümkün olduğuna vurğu verən E.Süleymanov "yaşıl enerji"yə keçidlə bağlı səylərin regionda davamlı sülhə də töhfə verməsinin sevindirici olduğunu əlavə edib. O qeyd edib ki, Ermənistan da daxil olmaqla Şərqi Avropa qrupuna daxil olan bütün ölkələrin yekdilliklə Azərbaycanın namizədliyini dəstəkləməsi ölkəmizə göstərilən etimadın nəticəsidir.

***XQ***

# Ölkəmizin COP29-a sədrliyi dünyada məmnunluqla qarşılanıb

**BMT Baş katibinin sözçüsü Stefan Dujarrik mediaya müsahibəsində 2024-cü ildə Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi edəcəyi ilə bağlı fikirlərini bölüşüb. İqlim dəyişikliyi istiqamətində həyata keçirilən tədbirlərdə Azərbaycanın rolunu yüksək dəyərləndirən BMT Baş katibinin sözçüsü deyib:**

–Son bir neçə həftə ərzində növbəti COP29-un harada keçiriləcəyi ilə bağlı çoxlu narahatlıq və gərginliklər vardı. Hesab edirəm ki, COP29-un Azərbaycanda keçirilməsi əlamətdar hadisədir və çox böyük əhəmiyyət kəsb edir. Bunun BMT üçün də çox böyük əhəmiyyəti var. Bir faktı xüsusilə qeyd etmək istərdim ki, biz ötən həftələrdə Azərbaycanın Ermənistanla razılaşma əldə etməsini, əsirlərin mübadiləsinin şahidi olduq ki, bu da müəyyən mənada münasibətlərin normallaşması və gərginliyin azalmasına gətirib çıxardı və eyni zamanda, Azərbaycanın səriştəli və aydın siyasətli bir ölkə kimi COP29-a ev sahibliyi etmək üçün rəsmi namizəd olmasına imkan verdi.



Biz Ermənistanın COP29-un evsahibliyinə namizədlikdə Azərbaycanı dəstəklədiyini də gördük. Beləliklə, bu, gərginliyin azalmasının əlamətidir. Bu gün dünyanın bir çox yerində münaqişələr davam edir, yeni ocaqların alovlandığı (Sudan, Qayana və Venesuela) və çox çətin vəziyyətlərin olduğu bir dünyada yaşayırıq. Düşünürəm ki, ölkələr nəhayət münaqişələrin, gərginliklərin və problemlərin həllində yeganə yolun silahlarla deyil, dialoq yolu ilə olduğunu başa düşə biləcəklərini göstərə bilərlər.

Biz növbəti COP29 üçün önümüzdə sülhün və aydınlığın olduğunu görməkdən çox şadıq. Bildiyiniz kimi, iqlim dəyişikliyi hamımızın üzləşdiyi əsas qlobal problemdir və Qafqaz və Mərkəzi Asiya ölkələri də iqlim dəyişikliyindən əziyyət çəkib və çəkməkdə davam edir. Ona görə də biz Azərbaycanın COP29-a sədrliyini çox səbirsizliklə gözləyirik. İqlim dəyişikliyi ilə mübarizə Baş katibin, həqiqətən, ürəkdən davam etdirdiyi mübarizədir və düşünürəm ki, heç bir dünya lideri bu məsələdə onun qədər daha açıq və ciddi olmayıb. Baş katib bu mübarizəni davam etdirəcək və o növbəti dəfə Azərbaycan Prezidenti ilə əməkdaşlığı səbirsizliklə gözləyir. Bəli, heç şübhəsiz ki, Baş katib özü də COP29-da Azərbaycanda olacaq. Ümid edirəm ki, mən də onunla gedəcəm və Azərbaycanı görəcəm. Mən bunu səbirsizliklə gözləyirəm.

***XQ***

# Rektorun manifesti

**Böyük ədibimiz, mütəfəkkirimiz, müəllimimiz Mir Cəlalın "Bir gəncin manifesti" romanını uşaqlıq çağlarında ürək ağrısı ilə – Baharın acı taleyinə yana-yana oxumuşam. Sonra əsərin ayrı-ayrı parçalarına dönə-dönə qayıtmışam, bu günün özündə də müxtəlif epizodları ürəyimdə və gözlərimin önündədir.**

Və həmişə təəssüflənmişəm ki, bu ölməz nəsr əsəri niyə ekranlaşdırılmayıb? Nə üçün bu mövzu kino rejissorlarımızın diqqətindən yayınıb? Əsər filmə çəkilsəydi, dünyanın çox ekranlarında səslənərdi. Ədəbi təvazökarlıq nümunəsi olan Mir Cəlal müəllim isə buna qətiyyən təşəbbüs göstərməyib.

Buna görə də illər öncə "Mir Cəlal dünyasından sətirlər" essemi yazmaya bilməzdim. Esse rus, ingilis, fransız, qırğız dillərində də nəşr olundu.

Onda düşünürdüm: "Manifest"lə görüşüm bitdi, sadəcə, xoş təəssüratı xatirə kimi həmişə yaşayacaq qəlbimdə". Əgər "Bir səfirin manifesti" dünya işığına çıxmasaydı... "Səfirin Manifesti"nə janr etibarilə roman - esse deyərdim. Əsər məni elə tutdu ki, ürəyimdəkiləri – "Diplomatın manifesti" yazımı da qələmə almaya bilmədim.

Onda da düşünürdüm: bir ailənin manifestlik missiyası artıq yetərincədir və bununla sona çatdı. Demə, yanılmışam.

Bu barədə bir az sonra... Öncə "Səfirin manifesti" prosesində üç məqam üzərində dayanmaq istəyirəm.

**Əvvəlcə** onu qeyd edim ki, Hafiz Mir Cəlal oğlunun ABŞ-da 13 illik ölkəmizin fövqəladə və səlahiyyətli səfiri missiyası dövründə iki dəfə bu ölkədə olmuşam və hər dəfə geriyə bitib-tükənməyən xatirələrlə dönmüşəm.

İlk səfərim 1993-cü ilin aprel ayının əvvəllərinə düşdü. – Hafiz müəllimin təyinatının ilk aylarına. 907-ci bədnam akt ondan öncə bəyan edilmişdi, Kəlbəcər yenicə işğal olunmuşdu...

ABŞ-da Azərbaycan həqiqətləri haqqında, demək olar, təsəvvür yox idi. Buna görə Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşavirinin rəhbərliyi ilə ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların – Şeyxülislamın, rus pravoslav kilsəsinin, yəhudi icmasının rəhbərlərindən ibarət nümayəndə heyəti ilə Ştatlarda 10 günlük səfərdə olduq. Öncə Medisson şəhərində keçirilən nüfuzlu beynəlxalq konfransda iştirak və çıxış etdik, müxtəlif ölkə təşkilatlarının rəhbərləri, din xadimləri ilə görüşlər keçirərək onlara Azərbaycan gerçəklərini çatdırdıq. Hafız müəllim səfirliyin diplomat əməkdaşını öncədən Medissona göndərmişdi və hər tədbir, hər görüş biz ora çatana qədər təşkil edilmişdi. Sonra Vaşinqtona gəldik.

Paytaxtda rəsmi dairələrlə, qeyri-hökumət təşkilatların baçşıları, dini konfessiyaların rəhbərləri, media qurumları ilə çoxsaylı görüşlərimiz barədə danışmaq çox vaxt aparar, Ağ evə, hətta ... Pentaqonacan gedib çıxdıq. Ağ evdə bizi yüksək səviyyədə qəbul etdilər, görüşümüz bir saatdan çox çəkdi, bizi axıracan maraqla dinlədilər, çox suallar verdilər.

Pentaqonda bizi müdafiə nazirinin müavini qəbul etdi. Bu görüşdən öncə görünür, İkinci Dünya müharibəsinin gedişi ilə maraqlanırmışlar. Kabinetinin divarında yazıları rus dilində olan Kursk döyüşünün xəritəsi asılmışdı. Bu görüşə politoloq Eldar Namazovla getdik. Biz tərəfdən əsas məsələ Ermənistan aqressiyası barədə məlumatları çatdırmaqla yanaşı, ABŞ-la Azərbaycan arasında müdafiə məsələləri üzrə saziş bağlanması mümkünlüyünün müzakirəsi idi.

Səfirliyimizin təzəcə açılmasını, səfirimizin yenicə işə başlamasını qətiyyən hiss etmirdik, elə bil, uzun illər fəaliyyət göstərən peşəkarlaşmış, püxtələşmiş səfirlik idi. Hafiz müəllim nümayəndə heyətimizi evinə – şam süfrəsinə dəvət etməyə də vaxt tapdı.

Dediyim kimi, 907-ci düzəliş yenicə bəyan edilmişdi. Hafiz müəllim bu əsassız qərarın tənqidi, ləğvi ilə bağlı apardığı məqsədyönlü, ardıcıl işlərlə yanaşı, Ştatların qeyri-hökumət təşkilatlarının, şirkətlərinin ölkəmizə yardımının təşkilinə çalışmışdı və nail olurdu.

Vaşinqtondan sonra bir neçə gün Nyu-Yorkda işlədik, hər gün 5–6 görüşümüzün hərəsi bu nəhəng şəhərin bir bölgəsində olsa da, peşəkar təşkilatçılıq sayəsində hər məqam dəqiqliklə, vaxtında baş tutdu. BMT-də isə Baş katib istisna olmaqla (o, səfərdə idi) bütün rəhbərlərlə, müvafiq qurumlarla müzakirələr apardıq.

İkinci məqam: 1998-ci ilin may ayında, Xalq Cümhuriyyətimizin 80 illiyi yubileyi günlərində Hafiz müəllimin təşəbbüsü və təşkilatçılığı ilə Vaşinqtonda ABŞ-da yaşayan soydaşlarımızın konqresi təşkil olunmuşdu. İştirakçıların tərkibi mürəkkəb idi, konqresə Azərbaycanı sevən vətənpərvərlərlə birlikdə, başqa ölkələrin rejiminə xidmət edən, faktiki olaraq birliyimizə qarşı duran insanlar da qatılmışdı. İş o yerə çatmışdı ki, bəziləri dövlət bayrağımızın səhnəyə qoyulmasına da etiraz edirdi. Azərbaycandan böyük nümayəndə heyəti getmişdi. Millət vəkilləri, siyasi partiyaların rəhbərləri, elm adamları, politoloqlar və başqaları. Mən konfransın açılışında Prezident Heydər Əliyevin konqresə ünvanladığı məktubu iştirakçıların diqqətinə çatdırdım, sonra geniş çıxış etdim. İki gün açıq müzakirələr getdi, çıxış edən hər kəs öz mövqeyini, düşüncələrini təqdim etdi. Müzakirələrdə çox məsələ aydınlaşdı və axırda Azərbaycan bayrağı, demək olar, bütün iştirakçıların alqışları altında səhnəyə qaldırıldı.

Konqres bitən kimi, əslən Cənubi Azərbaycandan olan bir neçə ABŞ vətəndaşı gözlərindən sevinc yaşları axa-axa mənə yaxınlaşdılar:

− Bizim hərəmiz Amerikaya bir ölkədən gəlmişik. Dünya görüşümüzdə, əlbəttə, o ölkələrin Azərbaycana münasibətindən nə isə var. Amma hamımız bu konqresdən əsl azərbaycanlı kimi çıxdıq!

Hafiz müəllim o konqresin salonunda 2 gün fasiləsiz əyləşib susdu. Professional diplomat olduğu üçün susdu. Konqresi istiqamətləndirməmək, siyasiləşdirməmək üçün susdu. Və nəticədə, məqsədinə nail oldu. Sonralar o nəticəyə gəldim ki, həmin konqres 2001-ci ildə keçirilən möhtəşəm Dünya Azərbaycanlılarının I Qurultayının ilk baş məşqi imiş.

Üçüncü məqam: Bu barədə öncə "Xalq qəzeti"nə verdiyim müsahibədə müfəssəlsöz açmışam. İndi isə qısaca bildirmək istəyirəm: Prezident Heydər Əliyev 23 may 2001-ci ildə həmin ilin 1–2 noyabrında Dünya Azərbaycanlılarının Birinci Qurultayının keçirilməsi haqqında sərəncam imzaladı. Bir müddət sonra qurultaya hazırlıqla bağlı Prezident Aparatında işçi qrupu yaradıldı. Təbii ki, mən də öz qrupumun üzvü idim. Qrup bir-iki dəfə toplaşdı, amma əsaslı bir iş görə bilmədi. Əsas iş bizim dövlət müşavirliyinin və onun rəhbəri kimi mənim üzərimdə idi.

Dünyanın elə bir ölkəsi qalmadi ki, orda yaşayan azərbaycanlılarla əlaqə qurmayaq – məktub göndərməyək, izahat aparmayaq. Başqa cür ola bilməzdi, çünki sərəncamda konkret vaxt göstərilmişdi və o vaxtacan hər şey hazır olmalı idi. Amerikadan başlamış Avropaya, Asiyaya, Avstraliyayadək. Təəssüf ki, işçi qrupunun bəzi üzvləri bu məsələni cidd-cəhdlə siyasiləşdirməyə başladılar. Guya, Prezidentə sədaqət nümayiş etdirmək istəyirlər deyə təklif edirdilər ki, ölkədən kənarda hakimiyyətə müxalifət olan diaspor üzvləri qurultaya dəvət edilməsin və onlara mandat verilməsin.

Bu adamlar başa düşmürdülər ki, söhbət Dünya Azərbaycanlılarının qurultayından gedir. Nə müxalifət, nə qeyri-müxalifət? Onlara izah etməyə çalışdım ki, belə olsa, qurultayı soydaşlarımız ciddi qəbul etməzlər, məclis barədə mənfi rəy formalaşar. Azərbaycan övladlarını dosta-düşmənə bölmək olmaz. Yenə mənə qarşı çıxdılar.

Biz səfirliklərimizlə, konsulluqlarımızla ardıcıl, sıx əlaqədə işləyirdik. Onda iqtidar–müxalifət adamları söhbəti qalxanda Hafiz Paşayevdən başqa, heç kəs mənim mövqeyimi dəstəkləmədi. Hafiz müəllimlə telefon söhbətimizdə o, birmənalı şəkildə mövqe nümayiş etdirərək dedi: "Doğru düşünürsünüz – bu məclisə ya hamı dəvət olunmalıdır, ya da heç kim dəvətedilməməlidir!" İnandığım, fikirlərinə, qənaətlərinə çox hörmət etdiyim səfirin belə birmənalı mövqeyi mənə yeni güc, yeni inam verdi.

Məsələni tam hazırlayandan sonra Prezident Heydər Əliyevə məruzə etdim. Dövlət başçısı bununla bağlı bir-iki sual verərək soruşdu: "Sən əminsən ki, qurultayda onlar insident törətməzlər?" Dedim: "Bəli, tam arxayınam. Orada başqa heç bir mənfi məqam ola bilməz". Ulu öndər dedi: "Get, hamısını dəvət et, o adamlara da mənim adımdan de – qərarım belədir".

Bundan sonra biz qurultaya nümayəndələr seçməyi buraxdıq xaricdə fəaliyyət göstərən milli təşkilatlarımızın ixtiyarına. Tam demokratik seçim oldu. Əlbəttə, xaricdə soydaşlarımızın təşkilatlarında təmsil olunmayan nüfuzlu, tanınmış azərbaycanlılar da vardı – onları biz xüsusi olaraq dəvət etdik. Amma əsas seçimi diasporanın ixtiyarına buraxdıq. Bu, yaxşı təşəbbüs idi və məmnunluqla qarşılandı.

İki gün davam edən qurultay çox möhtəşəm keçdi. Həmin dövrdə dünyanın əksər ölkələrində 300-dən artıq Azərbaycan icması fəaliyyət göstərirdi. Onların, demək olar, hamısının nümayəndələri qurultayda iştirak edirdilər. Ümumilikdə, məclisə dünyanın 36 ölkəsindən 403 nümayəndə qatılmışdı, iştirakçıların sayı isə 1105 nəfər idi. Bütün nümayəndələr qurultayı və Bakını heyranlıqla, Prezidentimizə sonsuz minnətdarlıqla tərk etdilər.

Qurultayın ertəsi günü Prezident 4 nəfər yüksək vəzifəli şəxsi dəvət edib müşavirə keçirdi, bizə təşəkkür etdi. 10 il Ulu öndərin rəhbərliyi altında işlədiyim müddətdə çox yüksək səviyyəli beynəlxalq tədbirlər keçirilmişdi, ancaq ilk dəfə idi ki, Prezident tədbirdən sonra təşkilatçılara təşəkkür edirdi. Sonra tapşırıq verdi: "Mənə bir çox nümayəndə heyətlərindən müraciət olub ki, onları qəbul edim. Hidayət, Siz onları qəbul edin. Baxın, kimlər sizin qəbulunuzla kifayətlənməyib, mənlə görüşməkdə maraqlı olsalar, deyin, onları qəbul edim. Yox, Sizin qəbulunuzla qane olarlarsa, onda ehtiyac yoxdur". Dedim: "Aydındır, cənab Prezident".

Düz bir həftə səhər saat 10-dan axşam 8-ə qədər öz kabinetimdə onları bir-bir qəbul etdim, dinlədim. Yalnız razılıq, minnətdarlıq sözləri eşitdim. Heyrətlərini gizlətmədən deyirdilər: "İndi biz möhkəm arxası, dayağı olan azərbaycanlı kimi vətəndaşı olduğumuz qürbət ölkəyə gedirik. Arxayınıq, məmnunuq ki, arxamızda möhtəşəm, bizi unutmayan tarixi Vətənimiz, müstəqil ölkəmiz − Prezidentimiz var!

Bu görüşlərdən bir neçə gün sonra Prezidentin qəbulunda oldum, gündəlik məsələləri məruzə edib axırda bildirdim: "Cənab Prezident, qurultaya gələnlər böyük minnətdarlıqlarını və Azərbaycandan çox məmnun getdiklərini Sizə çatdırmağımı xahiş etdilər". Ölkə rəhbəri soruşdu: "Nəsə bir problemləri, istəkləri yox idimi?" Dedim: "Xeyr, bəzi kiçik məsələlər var idi, onları da özüm yoluna qoydum".

Dünya Azərbaycanlılarının Birinci Qurultayı yeni tariximizin ən möhtəşəm tədbirlərindən biri kimi yaddaşlara həkk olundu. Məhz o qurultaydan sonra xaricdə yaşayan on minlərlə soydaşımız müqəddəs azərbaycançılıq ideyasının ətrafında sıx birləşməyə, təşkilatlaşmağa, öz haqlarını vətəndaşlığı olduğu ölkədən tələb etməyə, Vətənimizin həqiqətlərini dünyaya yaymağa başladılar. Bu möhtəşəm qurultayı xatırlayanda həmişə Hafiz müəllimin həqiqətə, müdrikliyə söykənən birmənalı mövqeyi minnətdarlıqla yada düşür.

Fövqəladə və səlahiyyətli səfirin fəaliyyətinin başlanğıcı olduğu kimi, gec-tez sonu da gəlir. Hafiz müəllim uzun illər ölkəmizi ABŞ-da yüksək səviyyədə təmsil etdikdən sonra düşünürdüm: Bakıya qayıdanda hansı vəzifəyə təyin oluna bilər? Qənaətim birmənalı idi: Yalnız Xarici işlər naziri. Çünki başqa istedadlı, bacarıqlı adamı Hafiz müəllim kimi diplomatiya qurucusu səviyyəsinə qaldırmaq üçün çox illər lazımdır. Hafiz müəllim isə Xarici işlər nazirinin müavini ranqında Azərbaycan diplomatik Akademiyasının təməlqoyanı, yaradıcısı kimi fəaliyyətə başladı. Akademiya yaranandan, formalaşandan sonra isə nazir müavini postundan istefa verdi.

Akademiyada təzə işə başlayanda mənə dedi: "Bizim ailə həmişə siyasi vəzifələrdən uzaq dayanmaq istəyir".

Həqiqətdir! Mir Cəlal ocağının davamıdır. Arif müəllim Paşayevin rəhbərlik etdiyi Milli Aviasiya Akademiyasının regionda tayı-bərabəri yoxdur. Nərgiz xanım Paşayevanın qurucusu olduğu M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı da özünəməxsusluğu, bölgədə alternativsizliyi ilə diqqəti çəkir. Hər iki ali məktəb təhsil sistemimizdə elan olunmamış təhsil "manifestlər"idir.



Hafiz müəllim 2006-cı ildən akademiyanı yaratmağa başladı, 2014-cü ildən isə İnformasiya Texnologiyaları Universitetinin əsasında ADA Universiteti formalaşmağa başladı.

Bir məqamı da qeyd etməyə bilmirəm: Hafiz müəllim rektorluq missiyasına başlayanda ADA-nın yerləşdiyi ilk binaya getdim. Şəhərin mərkəzində Şamil Əzizbəyov küçəsində köhnə bina idi, ancaq iş ab-havası, əhval-ruhiyyə tamam fərqli idi. Yeni tədris müəssisəsinə layiq müasir bina tikilməkdə idi. Hafiz müəllim yenə məktəbə, təhsilə bağlılığını unutmadı. "Biz təzə binaya köçəndə bu binanı bir orta məktəbə versələr, yaxşı olar" – dedi.

Təzə binada bütün arzuların tam reallaşmasına hər cür şərait var və mövcud imkanlardan bacarıqla istifadə olunur. ADA Universitetinin ünvanı, şöhrəti Azərbaycandan çox-çox uzaqlara yayılır, xaricdən gələn tanınmış diplomatlar, pedaqoqlar heyranlıqlarını gizlətmirlər. Qırğızıstanın təhsil naziri mənə deyirdi: "Fəxr edirəm ki, Azərbaycanda belə universitet var". Xarici işlər naziri də heyranlığını gizlətmirdi. Universitetin birinci prorektoru Fariz İsmayılzadənin rəhbərliyi ilə Bişkekə gələn nümayəndə heyətini hər yerdə ən mötəbər təhsil müəssisələrindən gələn qonaqlar kimi qarşılayırdılar. Mən uzaqlara getmirəm, məsələn, Vaşinqtonda açılan ADA Universitetinin mərkəzindən, orada təsis edilən "Bir müəllimin manifesti" proqramından söz açmıram, oxuduqlarımı deyil, gördüklərimi yazıram.

Ümumiyyətlə, Mərkəzi Asiyanın hər yerində bu universitetimiz tanınır və sevilir. Bu ölkələrdən xeyli sayda gənclər ADA Universitetində təhsil alır, ölkələrinə yetkin ixtisas sahibi kimi dönürlər.

Fiziklər çoxtərəfli savadlı, həm də deyərdim ki, ümumiyyətlə, istedadlı adamlar olurlar. Mənim də içində olduğum "altmışıncılar" ədəbiyyata gələndə mətbuatda, müzakirələrdə sərt bir öcəş var idi": Liriklər, yoxsa fiziklər? O vaxt ağıla gəlmirdi: fiziklər, yoxsa diplomatlar? Hafiz müəllim diplomatik karyerasına başlayanadək çox fizikin qibtə edəcəyi bir yol keçmişdi: Moskvada İqor Kurçatov adına Atom Enerjisi Institutunun aspiranturasını bitirmişdi, sonra İrvani şəhərində yerləşən Kaliforniya Universitetində elmi tədqiqatlar aparmışdı. Fizika-riyaziyyat elmləri doktoru idi.

Diplomatik fəaliyyəti isə fiziklərimizin arasında yeni anlayışdır. Fizikada qalsaydı, çox görkəmli alim olacaqdı, ancaq diplomatik kariyerası başlayanda ixtisas sahəsinə əlvida dedi. Səfirlik missiyam vaxtı mənə verdiyi bir sual da bu baxımdan çox düşündürücü idi: "İndi şeir yaza bilirsən?" Nə deyəcəyimdən asılı olmayaraq, sualın dəqiq cavabını özü yaxşı bilirdi: səfir missiyası nə fizika ilə bir araya sığır, nə də poeziya ilə.

Yenə "Manifest"ə qayıdıram. Son vaxtlar Hafiz müəllimin təşəbbüsü ilə yalnız şeir-sənət ocağımız deyil, həm də tarixən maarifçilər yurdu sayılan, dünyəvi təhsilimizin mərkəzlərindən olan Qazaxda ADA Universitetinin mərkəzi yaradıldı. Hafiz müəllim bu barədə mənə danışanda xəyalım çox uzaqlara getdi – əvvəlcə Qori Müəllimlər Seminariyasına çatdı (axı, mən hələ yetmişinci illərdə Qoridə olanda o seminariyanın binasını tapıb ziyarət etmişdim), sonra isə əlbəttə, Qazaxa yetişdi. Xəyalıma ilk gələni dedim:

− Səməd Vurğun Dürrəni orada "tapıb"?

− Səməd Vurğunun partasını qoyduq mərkəzin muzeyinə.

Xəyalımda misralar səsləndi:

"Dürrənin səsi",
"Dilican dərəsi",
"Şeirlərim", "qəzəllərim",
Lərim, lərim və nələrim...
Artıq gözlərimdən uzaqlaşdınız,
Soyuq bir aləmlə qucaqlaşdınız…

...Yox, Səməd Vurğun "acığından" belə deyib.

...Uzaqlaşmaq istədi, amma uzaqlaşa bilmədi.

...O illərdə iki-üç sərbəst vəznli şeir yazdı, amma dərhal böyük poeziyamızın zənginliyinə, Qazax seminariyasında əyləşdiyi partaya qayıtdı.

ADA Universiteti Qazax mərkəzinin nəzdində isə "Bir müəllimin manifesti" ixtisasartırma proqramı geniş tədris olunmağa başladı.

Əminəm ki, bu da Hafiz müəllimin son Manifesti deyil.

**Hidayət**

*17 dekabr, 2023*

## Ceyhun Bayramov Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyla görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy arasında görüş keçirilib.**



Görüşdə Azərbaycanla Rusiya arasında humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri, habelə regional vəziyyət müzakirə olunub.

Xüsusi nümayəndə Mixail Şvıdkoy bu il qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Rusiyada keçirilən tədbirlər barədə məlumat verib, növbəti ildə də mədəniyyət və humanitar sahələrdə iki ölkə arasında birgə tədbirlərin həyata keçirilməsi istiqamətində dəstək verməyə hazır olduğunu bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

## Azərbaycan–İƏT əlaqələrinin perspektivləri müzakirə olunub

**Dekabrın 19-da xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin humanitar, mədəni və sosial məsələlər üzrə müavini, Baş katibin Əfqanıstan üzrə xüsusi nümayəndəsi Tariq Əli Baxit ilə görüşüb.**



Nazir Ceyhun Bayramov təşkilatla qurulan sıx əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayıb. Bu il Bakıda İƏT-in Əmək Mərkəzinin açılışının təşkilat çərçivəsində münasibətləri daha da irəli aparacağı qeyd olunub. Görüləcək birgə işlərin əmək, məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı sahəsində üzv ölkələrin əməkdaşlığının genişləndirilməsinə xidmət edəcəyi diqqətə çatdırılıb.

Müzakirələr zamanı tərəflər Əfqanıstanda sülhün və sabitliyin əhəmiyyətini vurğulayıblar. Azərbaycanın bölgənin qonşuluğunda yerləşən dövlət olaraq, Əfqanıstandakı vəziyyəti yaxından izlədiyi bildirilib.

Tərəflər, eyni zamanda, ölkəmiz ilə İƏT arasında mövcud humanitar, sosial və mədəni əməkdaşlıqdan məmnun olduqlarını bildirib, birgə mədəni tədbirlər üzrə planları bölüşüblər.

*XQ*

# “Odlar yurdu”nun “yaşıl enerji” keçidinə önəmli töhfələri

## *Bərpaolunan enerjinin payı hazırda 17 faizi ötüb*

**Müasir dünyamız ənənəvi enerji mənbələrindən “yaşıl enerji”yə keçid mərhələsini yaşayır. Hətta bu sahə neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələrin belə, enerji sahəsində dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Artıq dünyanın qabaqcıl, inkişaf etmiş ölkələri ənənəvi enerjini ekoloji cəhətdən təmiz, təbiətin özündən gələn enerji ilə əvəz etməyə başlayıblar. Hətta bir sıra ölkələr 2035–2050-ci ilə qədər mədən yanacaqlarından tamamilə imtina etməyi və “yaşıl enerji”dən istifadəyə keçməyi planlaşdırır.**



Bu məqsədlə külək və günəş enerjisini elektrikə çevirən ən müasir qurğular quraşdırılır, ekoloji təmiz enerjinin istehsalı ildən-ilə artırılır. Bunun nəticəsidir ki, bərpaolunan enerji mənbələrinin energetika sektorunda payı getdikcə artır. Dünyada enerji istehlakının 18 faizinin məhz bərpaolunan enerji mənbələrinin payına düşməsi də “yaşıl keçid”in ilkin uğurlarından soraq verir.

Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini getdikcə gücləndirən Azərbaycan da artıq “yaşıl keçid” platformasının əsas iştirakçılarından birinə çevrilib. Elə Prezident İlham Əliyevin yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də məhz ölkəmizin Avropanın başladığı dekarbonizasiya prosesində fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl enerji” təchizatçısına çevrilməyi hədəfləyir.

Azərbaycanın alternativ və bərpaolunan enerji potensialı isə olduqca yüksəkdir. Belə ki, son tədqiqatlar ölkəmizdə 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Bütövlükdə isə, hazırda Azərbaycanın ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir.

Yeri gəlmişkən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizdə “yaşıl enerji” istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, dekabrın 18-də Bakıda “AzərEnerji” ASC-nin təşkilatçılığı ilə “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi” layihəsi çərçivəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın enerji qurumları arasında görüş keçirilib. Görüşdə “AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev, energetika nazirinin müavini Elnur Sultanov, “Gürcüstan Dövlət Elektrik Sistemi” şirkətinin baş direktoru George Gigineishvili, Rumıniyanın “Transelectrica” şirkətinin İdarə heyətinin üzvü Bogdan Toncescu və Macarıstanın “MVM” qrupun nümayəndəsi Robert Endrejterin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası istiqamətində görülən işlərə həsr olunmuş tədbirdə tərəflərin məsul qurumları arasında ilk işçi görüşün keçirilməsi və layihənin icrası ilə bağlı hüquqi və digər praktiki aspektlər ətraflı müzakirə olunub. Görüşdə, həmçinin birgə müəssisənin yaradılması və layihənin davamı üçün yol xəritəsi ətrafında geniş fikir mübadiləsi aparılıb. Bununla yanaşı, tərəflərin məsul qurumları arasında ilk işçi görüşün razılaşma protokolu imzalanıb. Eyni zamanda, növbəti görüşün bu formatda Gürcüstanda keçirilməsi razılaşdırılıb.

Xatırladaq ki, Avropa Komissiyasının sədri xanım Ursula Fon der Lyayenin iştirakı ilə imzalanmış 17 dekabr 2022-ci il tarixli Buxarest sazişinin icrası istiqamətində 4 ölkənin məsul nazirlərindən ibarət yaradılmış Rəhbər Komitənin artıq 5 iclası keçirilib. Budapeşt şəhərində keçirilmiş son görüşdə növbəti addım olaraq Bakıda ötürücü qurumların arasında birgə müəssisənin yaradılması məqsədilə görüşün təşkil edilməsi razılaşdırılıb.

Məlum olduğu kimi, hökumətlərarası sazişdə Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan “yaşıl enerji”nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib. Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən “yaşıl enerji”ni Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Yeri gəlmişkən, Qara dənizin dibi ilə kabel xəttinin çəkilməsini nəzərdə tutan layihə dörd ölkənin–Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə regionda və Avropada yeni tərəfdaşlıq formatı, yeni əməkdaşlıq mühiti formalaşdırıb. Bu istiqamətdə birgə əməkdaşlığın Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcəyi isə şəksizdir.

Sualtı kabelin çəkilməsi başa çatana qədər isə ölkəmiz “yaşıl enerji” istehsalını təmin etməlidir. Bu məqsədlə ötən müddətdə 25 qiqavat enerjini istehsal etmək məqsədilə dünyanın bərpaolunan enerji sahəsində tanınmış bir neçə beynəlxalq şirkət ilə müqavilə və anlaşma memorandumları imzalanılıb. Artıq Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin Qaradağ rayonunun ərazisində inşa etdiyi günəş elektrik stansiyası istifadəyə verilib. Bundan əlavə, Səudiyyə Ərəbistanının “Acwa Power” şirkəti tərəfindən 240 meqavat gücündə olan “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının inşası davam etdirilir. Bütövlükdə isə, 2025-ci ilə qədər Azərbaycanda 700 meqavatdan artıq günəş və külək enerjisini istehsalının təmin edilməsi planlaşdırılır.

Göründüyü kimi, Azərbaycanın gələn il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hesabatı üçün uğurlu işləri, “yaşıl enerji” layihələri kifayət qədərdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 9 ayda xaricə 2,7 milyard dollar milli investisiya yatırılıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, cari ilin 9 ayında ölkəmizdən xaricə yönəldilmiş xarici investisiyaların həcmi 2,7 milyard dollar təşkil edib.**



Məlumatda, həmçinin respublikamızdan həmin müddətdə 402 milyon dollarlıq pul köçürmələrinin də olduğu, bu köçürmələrə görə, ilk beşlikdə Türkiyə (104 milyon dollar), Rusiya (55 milyon dollar), Gürcüstan (43 milyon dollar), ABŞ (41 milyon dollar) və Birləşmiş Krallıq (22 milyon dollar) sıralandığı vurğulanıb.

# Enerji və istilik sahəsinin gəlirləri 2,7 milyard manatı keçib



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 11 ayında ölkədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2 milyard 716 milyon manat dəyərində məhsul istehsal edilib və xidmətlər göstərilib. Bu da ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 1,4 faizlik artım çoxdur.**

Xatırladaq ki, ötən il Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2 milyard 931 milyon manat dəyərində məhsul istehsal edilib və xidmətlər göstərilib. Bu sahədə əvvəlki illə müqayisədə 2,3 faizlik artım qeydə alınıb.

# Xaricə meyvə-tərəvəz satışı 12 faizdən çox artıb

**2023-cü ilin 11ayında Azərbaycan 641 milyon 188 min dollar dəyərində 641 min 740 ton meyvə-tərəvəz ixrac edib.**



Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb. Qurumun hesablamalarına görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 8 faiz və ya 47,8 milyon dollar, həcmi isə 12,2 faiz və ya 6,6 min ton artıb. Xatırladaq ki, ötən ilin 11 ayında Azərbaycan 593 milyon 388 min dollar dəyərində 572 min ton meyvə-tərəvəz ixrac edib.

Yanvar-noyabr aylarında ölkəmizdən ixrac olunan meyvə-tərəvəz məhsullarının sırasında birinci yeri tomat tutub. Hesabat dövründə xarici ticarət tərəfdaşlarımıza 150,8 milyon dollar dəyərində 127,4 min ton bu növ məhsul göndərilib. Sonrakı yerlərdə 97,4 milyon dollar dəyərində 18,9 min ton meşə fındığı, 89,4 milyon dollarlıq 118,5 min ton xurma, 44 milyon dollarlıq 69,2 min ton alma, 35 milyon dollarlıq 78,2 min ton kartof və 25 milyon dollarlıq 18 min ton nar qərarlaşıb.

Qeyd edək ki, cari ilin yanvar-noyabr aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,03 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 21,14 faizə bərabər olub.

***XQ***

# Azərbaycanın Avropada enerji tərəfdaşları çoxalır

## *Bu il 22 ölkəyə 15 milyard dollarlıq neft ixrac edilib*

*(əvvəli 1-ci səhifədə)*

Neftin kəmərlərlə ötürülməsinə gəldikdə isə qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 10 ay ərzində Bakı-Tbilisi-Ceyhan (BTC) ilə nəql edilən neftin 83 faizini və ya 20 milyon 902 min tonunu Azərbaycanda hasil edilən neft, 17 faizini və ya 4 milyon 270 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

Yeri gəlmişkən, magistral qaz kəmərləri ilə 32 milyon 964 min kubmetr qaz nəql edilib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 faiz artım müşahidə olunub. Qazın nəqlinin 55,2 faizi Bakı–Tbilisi–Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib və 18 milyon 210 min kubmetr qaz ötürülüb.

Cari ilin ilk üç rübü ərzində BTC üzrə əməliyyat xərclərinə, təxminən, 86 milyon dollar, əsaslı xərclərə isə 25 milyon dollar vəsait xərclənib. BP cari ilin üçüncü rübünün yekun hesabatına istinadən bildirir ki, 2006-cı ilin iyun ayında istismara veriləndən cari il sentyabr ayının sonunadək 1768 kilometr uzunluğunda olan bu boru kəməri vasitəsilə, ümumilikdə, təqribən 554 milyon ton (4,2 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5482 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Bu, ötən ilin göstəricilərindən 30 milyon ton və ya 5,72 faiz çox olub. BTC-nin, ümumilikdə, 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi, cari il yanvarın 18-də qeyd edilib.

Qeyd edək ki, hazırda BTC boru kəməri əsasən, Azərbaycandan “Azəri-Çıraq-Günəşli” nefti və “Şahdəniz” kondensatı daşıyır. Bundan əlavə, bu kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

Azəri-Çıraq-Günəşli (AÇG) üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin podratçı tərəfləri adından “BP Exploration (Caspian Sea) Limited” şirkətinin məlumatına əsasən, 2023-cü ilin birinci yarısında AÇG strukturunda hazırda istismarda olan neft yatağının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu qazılıb. Quyunun qazılmasına 7 fevral 2023-cü il tarixində başlanıb və quyu bu ilin aprel ayında tamamlanıb.

2023-cü ilin birinci yarısında AÇG-dən sabit hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. İlk altı ay üçün AÇG-dən ümumi hasilat gündə orta hesabla 375 min barel və ya ümumilikdə təxminən 68 milyon barel, yəni 9 milyon ton olub. İkinci rübün sonunda AÇG-də, ümumilikdə, 137 neft hasilat quyusu, 44 su injektor quyusu və 7 qaz injektor quyusu istismar edilib.

Mütəxəssislərin sözlərinə görə, bu il “Şahdəniz” yatağından hasilat ən yüksək sabit səviyyəyə çatdırılıb, bu mərhələdə yatağın ildə təxminən 26 milyard kubmetr qaz hasil edəcəyi, bununla da regional və Avropa bazarları üçün enerji təchizatının təhlükəsizliyinə və diversifikasiyasına əlavə töhfə veriləcəyi bildirilib.



Hazırda “Şahdəniz” yatağından gündəlik 73 milyon kubmetr qaz hasil olunur və hasilatın tədricən artırılması davam etdirilir. “Şahdəniz” layihəsi demək olar ki, 100 faizə çatan fenomenal əməliyyat səmərəliliyinə malikdir. Eyni zamanda, BP yeni qaz mənbələri axtarır. Bu ilin əvvəllərindən başlayaraq “Şahdəniz”də istismarda olan məhsuldar layların altında daha çox qaz tapmaq üçün yeni kəşfiyyat quyusunun qazılması da həyata keçirilir və burada işin yaxın vaxtlarda yekunlaşdırılacağı nəzərdə tutulur.

Azərbaycanın təbii qaz ixracının indiki vəziyyətini əks etdirən yuxarıdakı rəqəmlər ölkəmizin enerji sahəsinin inkişafının neft hasilatından təbii qaz istehsalına uğurla keçidini göstərir. Prezident İlham Əliyevin “Euronews” televiziyasına müsahibəsində dediyi aşağıdakı fikirlər də bunun bariz ifadəsidir: “Bizim enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid edib. Bununla yanaşı, bizim neft hasilatımız və ixracımız hələ də bir çox ölkənin enerji təhlükəsizliyinin bir hissəsidir. Üç il öncə 3500 kilometr uzunluğunda inteqrasiya edilmiş qaz boru kəmərlərindən ibarət olan Cənub Qaz Dəhlizinin başa çatdırılması Azərbaycana özünün qaz təchizatının coğrafiyasını genişləndirmək imkanı yaratdı. Bu gün biz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac edirik. Həmçinin biz Macarıstan və Serbiya ilə müqavilələr imzalamışıq. Bununla yanaşı, Albaniya da bizim qazın paylanılmasına dair planlarımıza daxildir”.

Dövlətimizin başçısı fikrini davam etdirərək, Avrasiyada və əsasən də Avropada enerji tərəfdaşlarımızın sayının getdikcə çoxaldığını və Azərbaycan qazına olan tələbatın artdığını bildirib. Həmçinin ölkəmiz Rusiyaya qarşı sanksiyalara görə, Avropa qitəsinə qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab verib və bunu əməli fəaliyyətində təsdiqləyib. Bu cür işgüzar əlaqələrin bundan sonra da davam etdiriləcəyi nəzərdə tutulub.

Ölkə rəhbəri həmin çıxışında hazırda Azərbaycanın neft-qaz sənayesinin inkişafını diqqətlə saxlamaqla yanaşı, bərpaolunan enerji layihələrinə də mühüm önəm verdiyini xatırladıb. Dövlət başçısı, həmçinin Xəzər dənizində nəhəng potensiala malik ölkə olduğumuzu, artıq 10 qiqavat həcmində külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzaladığımızı bildirib və bunun respublikamıza yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı yaratmasından, bununla da Avropa istehlakçılarının da “yaşıl enerji” ilə təmin ediləcəyindən bəhs edib.

***Vaqif BAYRAMOV***
***XQ***

# “Mənə Puşkini verin, mən Belinski olum”



**İlk dəfə onunla ötən əsrin 80-ci illərində Azərbaycan Dövlət Universitetinin (indiki BDU) auditoriyasında qarşılaşmışdıq. Gənc və yaraşıqlı müəllim təkcə xarizmatik görkəmi ilə deyil, XIX əsr rus ədəbiyyatından söylədiyi elə ilk mühazirəsi ilə də qrupumuzun bütün tələbələrini ovsunlamışdı. Onun rus, Qərb və Şərq ədəbiyyatının müxtəlif dövrləri ilə bağlı variasiyaları bu mühazirələrə diqqət kəsilməkdən başqa yol qoymurdu.**

**O vaxtdan 39 il keçir. Bu müddətdə onunla qarşılaşdığım elə də çox olmayıb. Buna baxmayaraq, hər görüşdə onun erudisiyasına, dərin zəkasına, ədəbi təfəkkürünə təkrar-təkrar heyran qalmışam. Son görüşüm isə məni çox üzdü. Telefonla vədələşib evlərində görüşdük. Vurğunu olduğum müəllimimi əlil arabasında görüb necə üzülməyəydim?! Amma əvvəlki tək nuru gözlərində, təbəssümü çöhrəsində idi. Üzüldüyümü büruzə verməməyə çalışıb boynunu qucaqladım. Çox səmimi və mehriban görüşdük. Zarafatından qalmayıb dedi: “İlqar, yaman qocalmısan”. Fikirləşəndə, doğrudan bir ömür geridə qoymuşuq. Xəstəlikləri ilə bağlı eşitdiklərimi dilə gətirmək istəməsəm də, özü söz saldı ki, 2016-2019-cu illər ömrünün ən təlatümlü illəri olub. Ömür sayılarsa, o günləri müxtəlif “bahalı xəstaxanalar”da keçib.**

**Gülə-gülə onu da əlavə etdi ki, “2024-də 70 yaşım olacaq. Bu yaşa “buket xəstəliklərlə” – şəkərli diabet, güclü pnevmoniya, böyrək çatışmazlığı ilə qədəm qoyuram. Həftədə 3 dəfə homodializ olunuram. Amma bütün bunlar məni yazmaqdan və düşünməkdən kənar qoya bilmir. İnadkar bir inamla işləyirəm. Son beş ildə 5 kitabım çap olunub”.**

**Görüşümüzün bu acı müqəddiməsindən sonra 80-ci illərdən bu günə işığı gələn insanları, müəllimlərimizi yada salıb bəzi xatirələrimizi bölüşdük və Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə ilə müsahibəmizə keçdik.**

## “Altmışıncılar alçaq üfüqlərin parlaq ulduzları idilər”

**– Nizaməddin müəllim, bir çox ədəbi tənqidçilər deyirlər ki, ədəbiyyat insanın bütün həyatı boyu keçdiyi bir yoldur, ədəbiyyat insanın mənəviyyatını müəyyənləşdirir, onun xarakterini, dünyagörüşünü formalaşdırır, ədəbiyyat insana mənəvi-əxlaqi normaları, cəmiyyətdə ahəngdar həyatı öyrədir, bütün xalqın, nəticə etibarı ilə dövlətin mənəviyyatını yüksəldir. Bu prizmadan baxanda, müasir Azərbaycan ədəbiyyatı niyə bu qədər solğun görünür?**

– Siz ədəbiyyatın tarixi-ictimai, estetik vəzifələrini çox doğru şərh etdiniz. Bu suala cavab vermək üçün bir az keçmişə qayıtmaq istərdim. Ötən əsrin altmışıncı illərində SSRİ miqyasında, o cümlədən, Azərbaycanda yeni ədəbiyyat yaranmağa başlayıb. Dəqiq desək, Stalin vəfat edən gün –1953-cü il martın 5-də Əli Kərim “İki sevgi” adlı şeirini çap etdirdi və elə həmin vaxtdan etibarən altmışıncılar deyilən bir ədəbiyyat yaranmağa, ədəbi nəsil formalaşmağa başladı.

Həmin ədəbiyyatın bünövrəsi nəsrdə Mehdi Hüseynin “Yeraltı çaylar dənizə axır”, Mirzə İbarhimovun “Böyük dayaq”, İlyas Əfəndiyevin “Söyüdlü arx” əsərləri, poeziyada Rəsul Rzanın “Rənglər” şeirlər silsiləsi və sair əsərlərlə qoyuldu. Bu, bütün postsovet məkanında gedən bir proses idi. Bir qədər geniş götürsək SSRİ miqyasında, poeziyada Yevtuşenko, Voznesenski, Axmadulina, Mejelaytis, nəsrdə Vasili Şukşin, Yuri Trifonov, Andrey Belov, Çingiz Aytmatov və sair ədiblərin sayəsində yeni ədəbiyyat yarandı. Mən hesab edirəm ki, həmin illərdə Azərbaycanda gedən ədəbi proseslərə İsa Hüseynov, Sabir Əhmədli, İsi Məlikzadə, Anar, Elçin rəhbərlik edirdi.

20 il bundan əvvəl yazdığım kimi yenə həmin fikirdəyəm ki, “altmışıncılar parlaq ulduzlar idi, fəqət alçaq üfüqlərin parlaq ulduzları idilər”. Altmışıncıların poeziyası haqqında mənim tələbə yoldaşım, elmlər doktoru Yaşar Qasımbəylinin “Milli oyanış və özünəqayıdış lirikası” adlı çox sanballı əsəri çap olundu. Ona yazdığım ön sözdə qeyd etmişəm ki, 30-cu illərdə ədəbiyyat özündən əvvəl gələn hər şeyi inkar etdi. Bu nihilizm idi. Məsələn, əruzu, qəzəli, tarı, muğamı və onunla bərabər Füzulini, Nəsimini və sair ədiblərimizi inkar etdilər və modern sovet, proletar bolşevik ədəbiyyatı yarandı. Almışıncı illərdə meydana gələn yazıçılar isə əslində 30-cuların “övladları” idilər və onlar da gəlib öz atalarını inkar etdilər. Bu, inkarı inkar qanunu kimi bir münasibət hesab edilir.

Siz sualı çox düz qoymusunuz. Bizim ədəbiyyat altmışıncı illərdən sonra, 1980–1990-cı illərdə, xüsusilə müstəqillik illərində böyük bir durğunluq keçirir. Bir çox yazıçılarımız bu fikrimə etiraz edə və deyə bilərlər ki, mən bir çox müasir yazıçılarımız haqqında məqalələr yazmışam.

Baxmayaraq ki, altmışıncıların sırasında, İsa Hüseynovun gözəl romanları var, Elçinin “Baş”, Y.Səmədoğlunun “Qətl günü” romanı var, Sabir Əhmədlinin, Anarın yaxşı əsərləri var, amma Azərbaycanda “Səfillər” yaranmadı və onların da heç biri Viktor Hüqo, Balzak deyil, Dostoyevski, Tolstoy, heç Çingiz Aytmatov da deyildi. Çingiz Aytmatov altmışıncıların sırasında bəlkə də ən güclü nasirdir. Bu mənada, mən nasir kimi İsa Hüseynovla, Çingiz Aytımatovu ayırıram. İsmayıl Şıxlının “Dəli Kür” romanını epizminə, milli xarakter yaratmasına görə xüsusi qeyd edirəm.

Sual oluna bilər ki, niyə belə oldu? Ona görə ki, dövr dəyişdi. Onların tapındığı ideallar sovet imperiyası ilə bərabər darmadağın oldu. Azərbaycan da ədəbi yol ayrıcında qaldı. Məsələn, “Leninlə söhbət” poemasını yazan Bəxtiyar Vahabzadə, “Zamanın bayraqdarı” poemasını yazan Səməd Vurğun, hətta “Lenin” poemasını yazan Rəsul Rza kimi şairlərin idealları məhv oldu. Müəyyən mənada, ədəbi təkamül məntiqi pozuldu. Amma durğunluğun əsl səbəbi bu da deyil. Ədəbi-tarixi prosesin, ədəbiyyatın, bəzən tarixdən asılı olmayan, özünəməxsus bədii-fəlsəfi təkamülü var. Bu təkamül altmışıncı illərdən sonra baş tutmadı. Xüsusilə indiki dövrdə bu, daha aydın özünü göstərməkdədir.

## “Sözün arxasında şəxsiyyət dayanmalıdır”

**– Maraqlıdır, buna baxmayaraq, indi söz demək və yazmaq istəyən hər kəs, imkan tapıb bir iki kitab çap etdirib dərhal özünü yazıçı kimi cəmiyyətə sırımaq istəyir. Axı bizə söylədiyiniz mühazirələrinizdə deyirdiniz ki, yazıçılıq ruhun təcəssümüdür, insana ilahidən verilmiş və peyğəmbərliyə bənzər bir təyinatdır. Bəs indi yazıçı olmaq niyə belə asan olub?**

– Əgər bu sualı mənə bir tənqiçi kimi verirsinizsə, açıq deyim ki, mən belə “yazıçıların əsərlərini” heç oxumuram da. Onlar yazıçı deyil. Mən əsərləri müəlliflərinə görə oxuyuram. Sözü hamı deyə, yaza bilər, amma sözün arxasında şəxsiyyət dayanmalıdır. Bədii əsərin arxasında da yazıçı şəxsiyyəti dayanmalıdır. O şəxsiyyətin gücü də onun fəhmində, vəhində, ilhamındadır. İlham, əslində ruh deməkdir.

Müqəddəs kitabımız “Quranı Kərim”in əl-Əzhab surəsində belə bir yer var ki, Allah yaratdığı bütün canlıları, cansızları, dənizləri, zəlzələləri, okeanları, heyvanları, dağları, o cümlədən, insanı çağırır və ruhu ortaya qoyur. Deyir: “Götürün”. Canlı və cansızların heç biri qorxudan ruha yaxın düşmür, amma insan ruhu götürüb qoyur balaca ürəyinə. İnsanın qüdrəti elə bundadır, o Allah əmanəti olan ruhun sahibidir.

Sizin dediyiniz və özünü yazıçı hesab edən o insanlarda yaradıcılıq ruhu yoxdur. Gərək onlar yazmasın. Mənim bir fikrim var və onu bütün yazılarımda təkrar edirəm: ədəbiyyatında Füzulisi olan xalqın şairi olmaq çox çətindir. Füzuli zirvədir, sən o zirvənin ətəyində komalar qurmaqla neyləmək istəyirsən?

**– Hər peşə sahibinin bir təyinatı olduğu kimi yəqin yazıçının da həyatda bir təyinatı var. Yazıçının əsl təyinatı nədir?**

– Yazıçılıq təhsillə, universitet bitirməklə, akademik olmaqla deyil. Yazıçılıq Allah vergisidir. Belə bir misal çəkim. Dünyada milyonlarla insan var. Amma heç də hamısı sevə bilmir. Sevənlər, eşqin mənasını dərk edənlər tək-tükdür. Bu, hər yerdə belədir. İlham da sevgi kimidir. O ya sənə verilir, ya da verilmir.

Ötən illərin birində İsa Hüseynovdan televiziya üçün müsahibə almışdım, çox hayıf o müsahibəni efirə buraxmadılar. İsa müəllim əlini yuxarı qaldırıb deyirdi ki, “mən yuxarı ilə bağlıyam”. Cavan idim deyə, o zaman çoxları kimi mən də onu başa düşmürdüm. İndi yaradıcılıqla məşğul olanda bunu aydın hiss edirəm. Bəzən özümü zorlayıb nəsə yazmaq istəyirəm, bir şey yaza bilmirəm. Amma bəzən içimdə yazmağa ac bir ehtiyac duyuram və birnəfəsə 20 səhifə yazıram.

**– Nizaməddin müəllim, o doğru fikirdirmi ki, jurnalistika ilə müqayisədə, bədii ədəbiyyat həqiqəti söyləmək üçün daha doğru vasitədir?**

– Mən elə düşünmürəm. Mənim jurnalistikaya xüsusi münasibətim var. Ədəbiyyatın bir janrı da publisistikadır. Bizim elə publisistlərimiz var ki, onlar həm siyasətçidir, həm filosofdur. Jurnalistin siyasətçi və filosof olmaq şansı daha böyükdür.

Həqiqəti söyləmək fikrinə gələndə isə, jurnalist bunu birbaşa, publisistik dillə söyləyir. Bədii ədəbiyyat isə həqiqəti obrazlı şəkildə ifadə edir.

Mənim dostlarım, tələbələrim bəzən mənə deyirlər ki, “Füzulini başa düşmək çətindir, qəliz yazır”. “Poeziya, ümumiyyətlə, ədəbiyyat sadədir”, demək olmaz. Sadədirsə, demək primitivdir. Ədəbiyyat mücərrəd olmalıdır. Bəlkə də düzgün ifadə etmirəm, amma ədəbiyyat obrazlı sənətdir axı. Obraz yoxdursa, ədəbiyyat da yoxdur. Bəli, bədii ədəbiyyat həqiqəti obrazlarla ifadə edir. Yazıçının düşüncələrini onun obrazı deyir, ifadə edir. Məsələn, Məcnun Füzulinin özüdür. Nəsimi nə deyir:

**Səni bu hüsni-camal ilə,**
**kamal ilə görüb,**
**Qorxdular həq deməyə,**
**döndülər insan dedilər...**

Nəsimi burda gerçəyi birbaşa deyir.

Yazıçı da, istər mənfi qəhrəmanı, istər müsbət qəhrəmanı yaradanda özünün xarakterinin mənfi və müsbət cizgilərini yaratdığı obrazda canlandırır. Axı yazıçı durub tribunadan deyə bilməz ki, mənim bu xarakterim qüsurludur. Ona görə də mənfi qəhrəman yaradır. Bəzi yazıçılar mənfi qəhrəmanlarına daha çox oxşayırlar. Elə yazıçı var ki, qəddardır. Bu onun özündən asılı deyil, xarakteri belə formalaşıb. Amma o əsərlərində səmimiyyətdən, eşqdən, humanizmdən yazır.

**– Ədəbiyyatın əsl məramı “insanı öyrətmək, tərbiyə etmək və mənən zənginləşdirmək, kamilləşdirməkdir” fikri ilə razısınızmı?**

– Mən bir qədər başqa cür fikirləşirəm. Mirzə Fətəli Axundzadə yazırdı ki, “mənim xalqım hələ fikir azadlığına nail olmayıb”. Ustadım, böyük mütəfəkkir Yaşar Qarayev “Azərbaycan realizminin mərhələləri” adlı doktorluq dissertasiyasında Mirzə Cəlildən danışanda yazır ki, “XX əsr ədəbiyyatının əsas problemi şüur yoxsulluğu problemidir. Mirzə Cəlil “Danabaş kəndinin əhvalatları” əsərində Məmmədhəsən əminin itmiş eşşəyini axtarmır, əslində Məmmədhəsən əminin içində itmiş Azərbaycan vətəndaşını axtarır”.

Bir fikir də deyim, buna təəccüb etməyin. Əslində Mirzə Fətəli Axundzadə, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir yaradıcılıqları düzgün tədqiq olunmayıb. “Mirzə Fətəli Axundzadənin məktublarına qeydlər” silsilə məqalələrimdə yazmışam ki, gənc vaxtlarımda mən də Axundzadəni başa düşməmişəm. Hamı kimi mən də elə bilmişəm ki, o dinin düşmənidir, ateistdir. Amma Axundzadə özü yazır ki, “mən İslam dininin düşməni deyiləm. İslam dinini bütün dinlərdən yüksək tuturam. Amma fanatizmin, xurafatın, mövhumatın düşməniyəm”. Bütün bunlar onu göstərir ki, o ədiblər insanın kamilliyini düşünərək yazıblar.

## “Yazıçıların içində senzura xofu var”

**– Maksim Qorki yazırdı ki, “yazıçı özünün xalqla qan bağlılığını dərindən hiss edəndə bu onun əsərlərinə gözəllik və güc veirir, onları əbədi edir”. Bu prizmadan baxanda müasir ədəbiyyatımızın yaradıcılarını necə görürsünüz? Bu qan bağlılığı ədəbiyyatda özünü göstərirmi?**

– Bilirsiniz, hər günü bir ilə bərabər 44 günlük müharibədə qazandığımız Zəfərdən sonra yeni dünya düzəni yarandı. Biz təkcə erməni işğalçılarını torpaqlarımızdan qovmadıq, eyni zamanda bütün dünyanı heyrətdə qoyan bir müharibə apardıq. Bizim hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev əvvəlcə ictimai düşüncə üçün müharibə labüdlüyü, müharibə fəlsəfəsini yaratdı. Yadınızdadırsa, müharibədən əvvəl Prezidentimiz BMT Təhlükəsizlik Şurasının toplantısında çıxış edərkən bu müharibənin labüdlüyünü əsaslandırdı, bir növ dünyanı xəbərdar etdi. Yəni erməni işğalçıları torpaqlarımızı tərk etməsələr, biz müharibə yolu ilə bunu edəcəyik. Hadisələr, münaqişəni həll etməyə məsul olan ATƏT-in Minsk qrupu və digər beynəlxalq qurumlar, hakim dövlətlər istəmirdilər bu münaqişə həllini tapsın və ona görə də bu kimi xəbərdarlıqları qulaqardına vurdular. Əlbəttə, bunun özəl səbəbləri var və Qərbdə heç zaman bunu açıq bəyan etmirlər.

Tarixə üz tutaq: 1071-ci ildə Alp Arslan 54 minlik ordusu ilə Bizans imperatoru Homenin 200 minlik ordusunu məğlub edib, Anadoluya İslam bayrağı sancdı və qızıl xaçı Anadolunun üzərindən qoparıb Bağdadda xəlifənin ayaqları altına atdı. O zamandan xristian dünyası İslam dövlətlərini və müsəlmanları qəbul etmir, düşmən hesab edirlər.

Yeri gəlmişkən, heç o xaç da onların deyil. Rusiyanın paytaxtında yaşayan, kitablarını çap etdirmək üçün Moskvadakı evini satan böyük alim Murad Adji özünün “Qıpçaq çölünün yovşanı” əsərində sübut edir ki, xaçı və ikonanı Avropaya türklər gətirib. Onu Avropaya eramızdan əvvəl yaranmış Turan imperiyasının banisi “Qızıl alma” bağının başçısı Alp Ər Tonqar və Atilla gətirib.

Onu da deyim ki, Hun imperiyasının başçısı Atilla çox möhtəşəm bir qəhrəman olub. Avropalılar onu “Tanrı qamçısı” adlandırırdılar. Atilla Vatikana gələndə Roma Papası onun atının üzəngisini tuturdu. Atilla dünyanı fəth edə-edə gəlirdi, Avropanı diz çökdürürdü. Başqa cür qarşısını ala bilmirdilər. Avropa dövlətlərinin kralları Atillanın qorxusundan gecələr xanımları ilə bir evdə belə yata bilmirdilər. Bütün bunlardan sonra məkr və hiyləyə əl atdılar, necə ki, indi bunu edirlər. Atillaya gözəl bir alman qızı bağışlayırlar. Həmin qız Atilla ilə öpüşərkən ağzında gizlətdiyi zəhəri onun mədəsinə ötürür və onu zəhərləyir. Hətta türklərin ən güclü şamanı belə başa düşmür ki, Atilla hansı zəhərdən ölüb. Bu qəsdi təşkil edən adamlar bilirdilər ki, Atillanın babaları qulaqlarından qan açılaraq ölüblər. Atilla da belə ölür. Onun əyanları və şamanı elə başa düşür ki, o da babaları kimi təbii yolla ölüb.

Yaxud, Əmir Teymura qarşı olan planı götürün. Fransız kralı IV Karl məktublar yazaraq Əmir Teymuru bütün Avropanı diz çökdürən İldırım Bəyazidə qarşı qoyur. Bu gün həmin Fransa Azərbaycana buynuz göstərir. Səbəb nədir? Səbəb odur ki, Azərbaycan boyda bir ölkənin prezidenti İlham Əliyev bütün Avropanı öz siyasəti və diplomatiyası ilə fəth etdi və heç kimə, heç nəyə məhəl qoymadan ölkəsinin haqqını aldı. Qərb bunu həzm edə bilmir.

Avropanın bu gün bizimlə niyə yola getməməsi haqqında məqalələrimin birində onu da yazmışam ki, XVI əsrə qədər Avropa Şərqin, o cümlədən, Azərbaycanın fəlsəfəsini toplayıb özünün təkamül fəlsəfəni yaratdı və indi ondan bizə qarşı istifadə edir. Biz də dünənə qədər onu qəbul edirdik.

Əli bəy Hüseynzadə yazırdı: “Nə qədər ki, biz Avropanı öz beyinlərimizdə həzm etməmişik, o çağa qədər Avropanın mədəsində qalmaq zorunda olacağıq”. Uzun müddət belə olmuşuq. İndi həmin o Avropa qıcıqlanır və qəzəblənir, çünki görür Azərbaycanın, Türkiyənin simasında türk dünyası elə bir zirvəyə yüksəlib ki, gec-tez dünyanı onlar idarə edəcəklər.

Qərb dünyası ermənilərdən pərsəng kimi istifadə etdi. Hərçənd erməni xaçı provoslav xaçı deyil. Qriqoryan kilsəsinə məxsusdur. O qriqoryan kilsəsi ki, IX əsrdə Səhl Sumbatın hiyləsi ilə Babəki ərəb xilafətinə satdı və Babəkin öz türkü Afşin onu əsir alıb Abbası xəlifəsi Əl-Möminə gətirdi. O da Babəki əzabla qətlə yetirdi.

**– Nizaməddin müəllim, bəs niyə biz bunları ədəbiyyatımızda görmürük, axı bu bizim qan yaddaşımızın bir parçasıdır?..**

– Çünki ədəbiyyatımızın buna gücü çatmır. Son vaxtlar Elçin Əfəndiyevin “Baş” romanını əlyazmasından oxudum və ona rəy yazdım. Bu roman, həqiqətən, çox yaxşı əsərdir, amma həddindən artıq rəmzidir. Bu romanda real tarixi hadisələrlə yanaşı bir “O” var. Əslində Elçinin əsərinin gücü həmin “O”-dadır. “O” nədir? Mən “O”-nu açmaq istədim. Amma fikirləşdim ki, hələ vaxtı deyil.

Bilirsiniz, bir çox düyünlər var ki, tarix onları açmağa hələ hazır deyil. Bəlkə də ədəbiyyatın bu missiyanı həyata keçirməyə gücü çatardı, amma ədəbiyyat aça bilmir. Bizim ədəbiyyat 1937-ci ildə necə xoflanıb, vahimələnibsə, bu gün də o xof və vahimə ilə yaşayır. Birdən deyərlər...

Sovet dövründə hamımız senzuradan dad etdik, yazdıq, tənqid etdik. Senzuranı ləğv etdilər. Senzura idarəsi artıq yoxdur. Amma yazıçıların içində senzura xofu var, onu keçə bilmirlər.

Vaxtı ilə mənim Azərbaycan televiziyasında “40-cı otaq” adlı verilişim var idi. Bir gün akademik Kamal Talıbzadəni həmin verilişə dəvət etmişdim və ona sual verdim: “Sizin nə ixtiyarınız var ki, atanız Abdulla Şaiqin əsərlərini ixtisar edib çap etdirmisiniz?” Dedi: “İxtisar etməsəm, çap etməyəcəkdilər”.

37-ci illər haqqında 50-dən artıq məqalə, 2-3 kitab yazmışam. Repressiya olunanların ailələrinə müraciət etdim ki, əlinizdə nə qalıbsa, nə bilirsinizsə gəlin görüşək, danışın, materialları verin üzə çıxaraq, qorxmayın. Qorxudan heç kim gəlmədi. Bircə Atababa Musaxanlının qızı gəldi...

Mən 37-ci ilin xofunu Mirzə Cəlilin “Ölülər” əsəri ilə müqayisə edirəm. Qayıdaq Mirzə Cəlilin əsərinə: Əvvəl hamı ölüsünü diriltmək istəyir. Lakin axşam evdə fikirləşib qərarlarını dəyişirlər. Qardaşını diriltmək istəyən düşünür ki, qardaşı öləndən sonra onun arvadını alıb, indi dirilsə ona nə deyəcək.

Beləcə də 37-də repressiya olunanların övladlarının əksəriyyəti onları diriltmək istəmirlər. Səbəbini sizə açıqlayım. Onlardan bir çoxu repressiya olunanların əsərlərini mənimsəyiblər. Düşünürlər, daha getdi də, qayıdası deyil ki. Əsəri qalıb. Məsələn, 1939-cu ildə Əli Nəzmi ilə Əmin Abid Mirzə Fətəli Axundzadənin fəlsəfi əsərlərini toplayıb çap ediblər. Araşdırın, baxın görün o əsərlər kimin adından çap olunub? Çobanzadənin Füzuli haqqında əsəri kimin adı ilə işıq üzü görüb? Yəni, indi hələlik cəmiyyət ona hazır deyil, onu açmaq istəmirəm.

**(ardı növbəti sayımızda)**

***Müəllimin müsahibəsini qələmə aldı tələbə İlqar RÜSTƏMOV***

# Sosial xəbərlər

## 580 işsizə fəaliyyət imkanı yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən “Məşğulluğa dəstək layihəsi” üzrə ölkəmizin bölgələrində yaşayan daha 580 işsizi bizneslərini qurmaq üçün avadanlıqlarla təmin edib.**

Seçdikləri istehsal və xidmət sahələri üzrə verilmiş avadanlıqlarla onlar öz kiçik təsərrüfatlarını yaradıblar.

Layihə işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin (əlillər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və b.) özünüməşğulluq fəaliyyətinin təşkilinə dəstək məqsədi daşıyır. Layihə çərçivəsində, ümumilikdə, 22 min şəxsin kiçik biznesə çıxışına şərait yaradılması hədəflənib.




Qeyd edək ki, layihəyə cəlb olunanlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunur. Biznes planlarını uğurla müdafiə edənlərə müxtəlif fəaliyyət istiqamətləri üzrə avadanlıqlar verilir.

## Mediatorlar İsmayıllı “DOST Evi” filialında

**Mediasiya Şurasının üzvləri DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllı “DOST Evi” filialının fəaliyyəti ilə tanış olublar.**



Bildirilib ki, “DOST Evi” sosial cəhətdən həssas əhali qruplarından olan şəxslərin yaradıcılıq potensialının inkişafına, onların rifahının yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, bölgədə milli sənətkarlığın inkişafında da mühüm rol oynayır. “Ev”in bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla bərabər, özünüməşğulluq layihələrinin icrasına da dəstək olması qeyd edilib. Qonaqlar 10 yaradıcılıq istiqaməti üzrə 6 emalatxanada həssas kateqoriyalardan olan şəxslərə yaradılmış şəraitlə tanış olublar.

Mediatorlar Sərgi və satış mərkəzində də olublar. Onlar DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının və təlimçilərinin əl işlərindən ibarət sərgiyə maraqla baxıblar.

***Z.HÜSEYNOVA***
***XQ***

# Bakı Şəhər İcra Hakimiyyətində "Heydər Əliyev" yubiley nəşrinin təqdimatı



**Bakı Şəhər İcra Hakimiyyətində ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilən tədbirlər çərçivəsində Ulu öndərin həyat və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən elmi məqalələr toplusu "Heydər Əliyev" kitabının təqdimatı keçirilib.**

Mərasimdə tanınmış tarixçilər, tədqiqatçı-alimlər, elm və mədəniyyət xadimləri, Millət vəkilləri, dövlət qurumlarının və ölkə ictimaiyyətinin, KİV-lərin nümayəndələri, Vətən müharibəsi veteranları və qazilər, din xadimləri iştirak ediblər.

Təqdimatın əvvəlində kitabla bağlı videoçarx nümayiş etdirilib. Sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, Ümummilli liderin xatirəsinə həsr edilən 2 fəsildən ibarət akademik nəşr Bakı Şəhər İcra Hakimiyyəti, AMEA Tarix və Etnologiya İnstitutunun birgə layihəsidir. Eldar Əzizov qeyd edib ki, Ulu öndərin zəngin siyasi irsinin və ölkə başçısı İlham Əliyevin siyasətinin yaxından öyrənilməsi və təbliği Azərbaycanda sabitliyin qorunması və ölkəmizin gələcək inkişafına təminat verir.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay



Qasımzadə, AMEA Tarix və Etnologiya İnstitutunun direktoru Kərim Şükürov və digər çıxış edənlər Ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açıblar. Onlar Vətənini hədsiz dərəcədə sevən bu dahi insanın ölkəsinin tarixinə, xalqına son dərəcə böyük sevgi və hörmətlə yanaşmasından danışıblar. Natiqlər bu kitabın Ümummilli liderin zəngin irsinin öyrənilməsi və təbliği işində mühüm rol oynayacağını vurğulayıblar.

**XQ**

# Naxçıvan Ali Məclisi payız sessiyasının iclası



**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının altıncı iclası keçirilib.**

Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə keçirilən iclasda "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" və "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" qanun layihələri müzakirəyə çıxarılıb.

"İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Qanun layihəsi barədə əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov məlumat verib. Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova layihə barədə komitənin rəyini diqqətə çatdırıb. Layihə səsə qoyularaq oxunuşda qəbul edilib.

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin birinci oxunuşunda müzakirəsi zamanı qeyd olunub ki, Nazirlər Kabineti müvafiq qanun layihəsini Ali Məclisə təqdim edib. Bildirilib ki, ümumilikdə, İşsizlikdən sığorta fondunun 2024-cü il üzrə gəlirləri 6 milyon 118 min 319 manat məbləğində proqnozlaşdırılır. Haqqı ödənilən ictimai işlərin təşkili üzrə növbəti ildə 400 min manat vəsait xərclənməsi nəzərdə tutulur. Sosial siyasət komitəsinin qanun layihəsi barədə rəyi diqqətə çatdırılıb. Layihə səsə qoyularaq söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla birinci oxunuşda qəbul edilib.

Daha sonra Ali Məclis sədrinin müavini gündəlikdə duran üçüncü məsələ ilə bağlı bildirib ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsi birinci oxunuşda qəbul olunub. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti layihənin yenilənmiş variantını Ali Məclisə təqdim edib. Qanun layihəsi ilə əlaqədar İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib. Layihə səsə qoyularaq ikinci oxunuşda əsas kimi qəbul edilib.

Bununla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırıb.

**XQ**

# Rusiyaya yumurta ixracı daxili bazarda bahalaşma yaratmayacaq

**Rusiya kənd təsərrüfatı naziri Dmitri Patruşev "Vahid Rusiya"nın 21-ci Konqresi çərçivəsində keçirilən tədbirdə "RİA Novosti" müxbirinə müsahibəsində ölkədə yumurtanın bahalaşmasına görə, xalqdan üzr istəyib, həmçinin tezliklə Türkiyə və Azərbaycandan "rüsumsuz yumurta" alınacağını, bunun nəticəsində isə bu məhsula olan tələbatın ödəniləcəyini, qiymətlərin aşağı düşəcəyini bildirib. O, Prezident Vladimir Putinin vəziyyətlə bağlı haqlı iradları ilə razılaşdığını, bundan nəticə çıxarılacağını, rəhbərlik etdiyi qurumun isə bundan sonra daha yaxşı fəaliyyət göstərəcəyini diqqətə çatdırıb.**



D.Patruşev yumurtanın qiymətinin bahalaşmasının davam etməsi fonunda bəzi ekspertlərin idxalın gerçəkləşəcəyinə əsassız olaraq şübhə ilə yanaşdığına da vurğulayıb. Kənd təsərrüfatı naziri, adətən, yeni il bayramları ərəfəsində ölkədə yumurtanın bahalaşdığını, qısa müddət ötdükdən sonra isə qiymətlərin ucuzlaşmağa doğru getdiyini qeyd edib.

D.Patruşev müsahibəsində Rusiya hökumətinin dost ölkələrdən toyuq yumurtasına idxal gömrük rüsumlarının sıfırlanmasını da təsdiqləyib və hazırda yumurtanın idxal rüsumunun istehsalın maya dəyərinin 15 faizini təşkil etdiyini, güzəştin 2024-cü il yanvarın 1-dən iyunun 30-dək qüvvədə olacağını, bu müddət ərzində hökumətin hesablamalarına görə, ölkəyə rüsumsuz 1,2 milyard yumurta idxalının reallaşacağını diqqətə çatdırıb.

Xatırladaq ki, Rusiya Prezidenti məsələ ilə bağlı çıxışında məhsulun bahalaşdığı ilk günlərdə qiymətləri endirmək üçün diqqəti idxalın zəruriliyinə yönəltdiyini, lakin müəyyən qurumların bu vacib tədbiri gecikdirməkdə maraqlı olduqlarını, bu yolla daha çox qazanmağa ümid etdiklərini vurğulayıb.

Yeri gəlmişkən, Rusiya Federal Antiinhisar Xidməti tərəfindən ölkədəki dörd müəssisə yumurta qiymətlərinin bahalaşmasına səbəb olan kartel sui-qəsdində şübhəli bilinib. Adıçəkilən xidmət Krımın "Partizan" və "Oktyabrskoye" şirkətlərinə, həmçinin Kirov istehsalçıları olan "Sovetskaya Aqrofirma" və Vyatsko-Polyanskaya quşçuluq fabriklərinə qarşı inzibati iş açıb.

Rusiya Kənd Təsərrüfatı Nazirliyi yumurta idxalında rüsumların sıfırlanmasını operativ tədbir adlandırıb. Bu, ölkədə sözügedən məhsulla bağlı daxili bazarın tələbatını ödəmək və tezliklə qiymətin bahalaşma dinamikasını sabitləşdirmək məqsədi daşıdığını bildirib.

Dövlət Dumasının İqtisadi Siyasət Komitəsinin sədri Vladimir Qutenev də Türkiyə və Azərbaycandan idxal olunacaq yumurtanın qiymətinin tənzimlənməsinin əsas və yeganə tədbir olduğunu vurğulayıb. O, daha sonra Rusiya hökumətinin bundan sonra mövcud sahəyə investisiya qoyulmasına xüsusi diqqət yetirəcəyinə də əminliyini ifadə edib.

Yeri gəlmişkən, Azərbaycan və Türkiyədən yumurta alışları ilə Rusiyada yumurtanın qiymətinin yaxın aylarda sabitləşəcəyi proqnozlaşdırılır. Qeyd edək ki, son 1 ildə Rusiyada yumurta 40 faiz bahalaşıb. Burada digər bir məqam da odur ki, qonşu ölkənin Azərbaycandan yumurta almağa başlaması respublikamızda bu məhsulun qiymətinin artacağı narahatlığı doğurub. Amma Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Mürvət Həsənli mediaya qonşu ölkəyə ərzaqlıq yumurta ixracının daxili bazarda qiymətlərin artmasına gətirib çıxarmayacağını da bildirib. Lakin Azərbaycanda yumurta istehsalı ilə məşğul olan müəssisələrin qarşıdakı 3 ay ərzində istehsal güclərini 15-20 faiz artırmalı olacaqlarını vurğulayıb.

Assosiasiyanın sədri daha sonra deyib ki, Rusiyada Azərbaycanın yumurta istehsal edən quşçuluq müəssisələri uzun illər reyestrə daxil edilməyib. Nəticədə, quşçuluq fabrikləri izafi istehsal yarandıqda bu ölkəyə yumurta ixrac edə bilməyib. Halbuki Azərbaycanın bu sahədə fəaliyyət göstərən müəssisələri müasir standartlara uyğun olsa da, müəyyən bəhanələr gətirilərək qeydiyyata alınmayıb. Belə bir vəziyyətdə – Rusiyada yumurtaya tələbat ödənilmədiyi və nəticədə, qiymətlərin bahalaşdığı şəraitdə isə 6 müəssisə (Giləzi Quşçuluq", "Hacıqabul Quşçuluq", "Muğan Quşçuluq", "Ləzzət Quşçuluq", "Pirsaat Quşçuluq" və "Yaşma Quşçuluq" şirkətləri) bu ölkə tərəfindən reyestrə salınıb.

M.Həsənli daha sonra deyib: "Azərbaycan Rusiyadan hər zaman yumurta idxal edirdi, bu gün isə ölkəmiz Rusiyaya yumurta göndərməyə başlayır. Rusiya bazarı bizim üçün yeni və böyük bir bazardır. Rusiya bazarına yumurta satmaq bizə daha sərfəlidir. Hazırda Azərbaycandan Yaxın Şərq ölkələrinə – Qətər, Səudiyyə Ərəbistanı, İraq və digər ölkələrə yumurta ixrac edilir. Oktyabrın 1-dək olan statistik məlumata görə, Azərbaycan həmin ölkələrə 40 milyon ədəd yumurta ixrac edib".

Assosiasiyasının sədri onu da bildirib ki, ölkəmizin ərzaqlıq yumurtaya gündəlik tələbatı 3,2–3,6 milyon ədəd, daxili istehsal isə 4,6–4,9 milyon ədəd civarındadır. Ölkəmizin bu məhsula tələbatı tam ödənilir.

Onu da qeyd edək ki, son illərdə ölkəmizdə ərzaq təminatı ilə bağlı digər sahələr kimi, sənaye quşçuluğunun inkişafına da mühüm önəm verilib. Həmçinin yeni texnologiyaların tətbiqi bu sahənin inkişafını daha da sürətləndirib, quşçuluq təsərrüfatlarının quş əti və damazlıq yumurta üzrə istehsal gücləri artıb. Bütün bunların nəticəsidir ki, respublikamızın ərzaq təminatının daxili istehsal hesabına ödənilməsində broyler quşçuluq təsərrüfatlarının çəkisi getdikcə yüksəlib.

Azərbaycanda aqrar sektorun inkişafı ilə bağlı indiyədək qəbul edilən bir sıra proqramlarda qarşıya qoyulan hədəflərə nail olunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib və bunun nəticəsində sənaye quşçuluğu respublikanın daxili istehsal hesabına ərzaq təminatında əhəmiyyətli mövqe tutub.

Bu sahəyə göstərilən diqqətin nəticəsidir ki, bu gün illik istehsal gücü 55 min ton quş əti və 248 milyon ədəd yumurta olan 39 quşçuluq fabrikinin istehsal gücünün genişləndirilməsinə və əlavə olaraq 5 damazlıq, 1 əmtəəlik və 9 broyler fabrikinin istifadəyə verilməsinə son illər ərzində 98 milyon manat güzəştli kredit verilib.

***Vaqif BAYRAMOV***

**XQ**





# Qədim diyarda görkəmli akademikin yubileyi

**AMEA Naxçıvan Bölməsində görkəmli tarixçi və şərqşünas alim, ictimai xadim, akademik, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun anadan olmasının 100 illiyi münasibətilə yubiley mərasimi keçirilib.**

Məclisi giriş sözü ilə açan Bölmə sədri, akademik İsmayıl Hacıyev Ziya Bünyadovun Azərbaycan elminə xidmətdə keçmiş mənalı həyatı və zəngin elmi və ictimai-siyasi fəaliyyəti barədə danışıb, akademiki yurdsevərliyi, qətiyyəti, mərdliyi və başqa insani keyfiyyətləri ilə fərqlənən vətənpərvər kimi səciyyələndirib.

Vurğulanıb ki, ömrünə çoxsaylı mühüm hadisələri sığışdıran alim Azərbaycan EA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru kimi məsul vəzifələrin öhdəsindən uğurla gəlmişdir. O, 1992-ci ildə ulu öndər Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı üçün müraciət edən 91 nəfər cəsarətli ziyalıdan biri olmuşdur. Dünya şöhrətli alim Yeni Azərbaycan Partiyası sədrinin müavini, Milli Məclisin deputatı olmuşdur. Ümummilli lider alimin elmi və ictimai irsini yüksək qiymətləndirmiş, "Z.M.Bünyadovun xatirəsinin əbədiləşdirilməsi haqqında" sərəncam imzalamışdır.

Yubiley toplantısında Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun icraçı direktoru, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Ziya Bünyadovun həyatı və elmi yaradıcılığı" mövzusunda məruzəsi dinlənilib. İnstitutun şöbə müdiri, dosent İlhami Əliyev və digər çıxış edənlər akademik Ziya Bünyadovun həyatının və elmi fəaliyyətinin əsas dövrlərindən, fundamentallığı ilə seçilən elmi irsindən, tərcüməçilik fəaliyyətindən söz açıblar.

Bildirilib ki, Azərbaycanın istiqlal amalı ilə yaşamış alim hələ keçmiş SSRİ dönəmində tarixi Azərbaycan torpaqlarının XIX əsrdə Rusiyaya birləşdirilməsini hərbi işğal kimi sübuta yetirmiş, erməni saxtakarlıqlarına qarşı kəskin mübarizə aparmışdır. Alimin türk, rus, ərəb və fars dillərindən etdiyi tərcümələr milli şərqşünaslığa mötəbər elmi qaynağa çevrilmişdir. Akademik Ziya Bünyadovun elmi irsi tarix və şərqşünaslıq elmimizin xəzinəsini zənginləşdirib.

**XQ**

# Sağlam ətraf mühit və vətəndaş cəmiyyəti

**Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları dekabrın 18-də "COP29: gözləntilər, perspektivlər" mövzusunda ictimai müzakirələr keçirib və birgə bəyanat qəbul ediblər.**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan müzakirələrdə çıxış edən agentliyin icraçı direktoru Aygün Əliyeva BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsini tarixi uğur adlandırıb. O, qurumun 2024-cü ilin əvvəlində COP29-la bağlı xüsusi qrant müsabiqəsi elan edəcəyini açıqlayıb.

Sonra qeyri-hökumət təşkilatlarının nümayəndələrinin COP29-la bağlı fikir və təklifləri dinlənilib, müzakirələr aparılıb. Alternativ enerjiyə aid hesabatların, fleşmobların, yürüşlərin keçirilməsi təklif kimi irəli sürülüb. Tədbirdə COP28-də iştirak etmiş QHT sədrləri də fikir və mülahizələrini bölüşüblər.

"Yaşıl Tikinti Şurası"nın həmtəsisçisi və rəhbəri Guy Eames bildirib ki, COP29-un Bakıda keçirilməsi Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi nümayiş etdirir.

Tədbirin sonunda QHT-lər COP29-la bağlı birgə bəyanat qəbul ediblər. Bəyanatı "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyi sədr müavini Amin Məmmədov səsləndirib.

**XQ**

# Fransanın Rəbbaniyə düşmənçiliyi pislənilib

**İslam Əməkdaşlıq Gənclər Forumu Avrasiya Regional Mərkəzi Britaniya vətəndaşı Məhəmməd Rəbbaninin Fransanın tələbi ilə BMT-nin Cenevrə ofisində Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi "Neokolonializm: İnsan Haqları, Sülh və Təhlükəsizlik" konfransına buraxılmamasını pisləyib.**

ICYF-ERC
ISLAMIC COOPERATION YOUTH FORUM
EURASIAN REGIONAL CENTER

Bəyanatda Fransa hökumətinə bu hadisənin hərtərəfli araşdırılması, başqa dövlətlərin daxili işlərinə qarışmaması, suverenlik və beynəlxalq əməkdaşlıq prinsiplərinə hörmət edilməsi və belə halların gələcəkdə baş verməməsi, xüsusilə, insan haqlarının və sülhün qorunması sahəsində çalışan şəxslər üçün hərəkət və ifadə azadlığının təmin edilməsi ilə bağlı çağırış edilib.

"İƏGF Avrasiya Regional Mərkəzinin İdarə Heyəti ədalət, insan haqları və beynəlxalq əməkdaşlığı pozan hallara qarşıdır. Bu hadisə ilə bağlı monitorinq aparacağıq və insan haqları, ədalət prinsiplərinin müdafiəsini davam etdirəcəyik", – bəyanatda qeyd olunub.

**XQ**

Feyzulla Qasımzadə – 125

# Ədəbiyyatşünaslıqda məktəb yaratmış akademik

**AYB-nin Natəvan klubunda keçirilən "İki zirvənin fatehi – alim və müəllim" adlı növbəti yubiley mərasimi böyük ədəbiyyatşünas, pedaqoq, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü (akademik), filologiya elmləri doktoru, Əməkdar elm xadimi və Əməkdar müəllim Feyzulla Qasımzadənin anadan olmasının 125 illiyinə həsr olunub.**



Yubileylər "epişentri" sayılan Natəvan klubuna gedərkən yadıma görkəmli akademikin "Məclisi-üns"ün sahibi olmuş Xurşidbanu xanım haqqında söylədiyi bir fikir düşdü: "Natəvan nəcib, səxavətli bir qadın olub, yoxsullara kömək etməkdən xoşlanırdı". Özlüyümdə müəyyən paralellər apararaq düşündüm ki, ilk olaraq "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyinin müəllifi kimi tanıdığımız Feyzulla Qasımzadə də özünün zəka nuru ilə minlərlə tələbənin bəsirət gözünə işıq verib. Onun dərslikləri ali təhsil illərində masaüstü kitablarımızdan olub və ədəbiyyatımızın intibah dövrünə elmi səyahətlərimizə bələdçilik edib...

Natəvan klubunda məclisə moderatorluq edən aparıcı – Azərbaycan Ədəbiyyat Fondunun Baş direktoru, tanınmış yazıçı Varis Yolçiyev unudulmaz akademikin tədqiqat sahəsi olan XIX əsr milli ədəbiyyatımızın ümumi mənzərəsini gözlər önündə canlandırmaqla onun necə genişhəhatəli bir dövrü araşdırdığını xatırlatdı. Qeyd edildi ki, Feyzulla Qasımzadə 34 dərslik və kitabın müəllifi olub, 150-dək alim, o cümlədən 30 elmlər doktoru yetişdirib.

AYB-nin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev akademik Feyzulla Qasımzadənin elmi irsini yüksək dəyərləndirdi və belə şəxsiyyətlərin xatirəsinin daim uca tutulması zərurətini diqqətə çatdırdı.

Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı hələ 60-cı illərdə çalışdığı "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında dəfələrlə görüşüb söhbətlərinə heyran qaldığı Feyzulla Qasımzadə fenomeninə böyük rəğbətini ifadə etdi.

Akademik, Milli Məclisin deputatı Nizami Cəfərov özünün sələflərindən saydığı Feyzulla Qasımzadəyə sağlığında hamının böyük hörmətlə "Mirzə Feyzulla" deyə müraciət etdiyini bildirdi. Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Abbasqulu ağa Bakıxanovun və XIX əsr ədəbiyyatımızın digər azman nümayəndələrinin yaradıcılığının mükəmməl tədqiqi və təbliği işinə onun verdiyi töhfələrdən danışdı.

Digər natiqlər Azərbaycan ziyalılarının böyük bir ordusunun müəllimi və görkəmli ədəbiyyat tarixçisi kimi tanınan ilk alimlərdən biri olmuş Feyzulla Qasımzadənin vaxtilə SSRİ EA Azərbaycan Filialının Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, Azərbaycan Pedaqoji İnstitutunda dosent, kafedra müdiri, Bakı Dövlət Universitetində və Pedaqoji İnstitutda kafedra müdiri kimi fəaliyyət göstərdiyini qeyd edilər, dərslik, elmi monoqrafiya, müntəxabat və məqalələrinin başlıca məziyyətlərini açıqladılar. Vurğulandı ki, onun 600-dək elmi məqaləsi, 400-dən artıq qəzet və jurnal məqaləsi çap olunub. Xatirələrdən, həmçinin akademikin öz yüksək erudisiyası, geniş dünyagörüşü, güclü yaddaşı, olaylara özünəməxsus yanaşma tərzi, səmimiyyəti, təvazökarlığı və xeyirxahlığı ilə seçilən bir alim obrazı boy göstərdi.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Mədəni irsə sahiblik duyğusu

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Mədəni İrs Forumu dünən işini davam etdirib.**



Forumun 2-ci gününün ilk paneli Azərbaycanın daşınmaz tarixi-mədəni irsinin tədqiqi və mühafizəsi mövzusuna həsr olunub. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəhbəri Şahin Seyidzadə "Mədəni irsin qorunması, monitorinqi, inventarlaşdırılması və pasportlaşdırılması, abidənin bərpa-konservasiya təcrübəsi, ənənələr və müasir yanaşmalar" mövzusunda çıxış edib. O, qoruq ərazisindəki tarixi abidələrdən və ərazidə yaşayış şərtlərindən danışıb.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva "Mədəni irsin qorunması sahəsində qanunvericilik məsələləri" mövzusunda çıxışında mədəni irsin qorunmasında əsas istiqamət və məqsədlər barədə söz açıb. Abidələrə qanunsuz müdaxilələr məsələsinə toxunan natiq diqqətə çatdırıb ki, vətəndaşların istifadəsində olan tarixi-mədəni abidələrimizin ərazi şəraiti, yaxud kiminsə fərdi sahəsində olması və digər bu kimi amillər həmin abidələrin mühafizəsinə əngəl törədir.

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun icraçı direktoru Zaur Həsənov "Arxeoloji abidələrin tədqiqinə yeni üsullar: müasir metodologiyalardan istifadə" mövzusunda çıxış edib. Məruzəçi arxeoloji tədqiqatlarda müasir texnologiyaların istifadəsinin tətbiqinin əhəmiyyətini diqqətə çatdırıb.

Dövlət Turizm Agentliyi nəzdində Qoruqları İdarəetmə Mərkəzi İdarə heyətinin sədr müavini Sədaqət Davudova "Mədəni irsin qorunmasında qanunvericilik məsələləri" mövzusunda çıxışında mərkəzin tabeliyində olan qoruqlardakı irs obyektlərinin mühafizəsi məsələlərindən bəhs edib. Deyib ki, mərkəzin əsas vəzifələri qoruq ərazilərində yerləşən maddi-mədəni və qeyri-maddi tarixi irs nümunələrini qorumaqla onlardan turizm məqsədli səmərəli istifadəni təşkil etmək, ərazilərdə turizm marşrutlarını müəyyən etməklə onların təbliğini genişləndirmək, müvafiq tədqiqat işlərini dəstəkləyib ictimai maarifləndirməni artırmaq və s. dən ibarətdir.

"Mədəni irs abidələrinin idarə edilməsi, onların qorunmasında müasir texnologiyalar və innovasiyalar, kadrların hazırlanması" mövzusunda çıxış edən Avstriyanın "Ataşlər" Erich Pummer" şirkətinin müdir müavini Çingiz Nemanzadə minarələrin bərpasında diqqət edilməli məqamlardan, bu sahədə tətbiq edilən yeni texnologiyalardan söz açıb. Onun çıxışı minarələrin bərpa texnologiyasına dair videoçarxla müşayiət olunub.

Televiziya aparıcısı, bələdçi Fuad Axundov "Memarlıq abidələrinin qorunması və istifadəsində əhalinin sosial məsuliyyəti, dövlət və özəl tərəfdaşlıq" mövzusunda çıxışında tarixi binaların fasadlarına yersiz müdaxilələrdən danışıb.

Sonda qaldırılan məsələlər və təkliflər barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Hər tamaşa səhnədə yeni bir imtahandır

**Bu günlərdə onun quruluşçu rejissoru olduğu yeni tamaşanın premyerası olub. Jan Anuyun "Antiqona" əsərinə Gənc Tamaşaçılar Teatrının səhnəsində quruluş verib. Ondan bir-neçə gün əvvəl isə Antalya Böyükşəhər Teatrı onun hazırladığı Pərvin Ünalpın "Gecikənlər"pyesinin tamaşası ilə Bakıda qastrolda olub. Gənc Tamaşaçılar Teatrının aktyoru və rejissoru Nofəl Vəliyevlə həmsöhbətik.**



– Premyera yüksək səviyyədə keçdi. Azərbaycanın böyük səhnəsində bu tamaşa mənim üçün böyük imtahandır. Baxmayaraq ki, buna qədər kiçik səhnələrdə tamaşalara quruluş vermişəm. Türküyənin Antalya Şəhər Teatrlarında hazırladığım tamaşalar 10 ilə yaxındır ki, səhnədən düşmür. İncəsənət Universitetində xeyli sayda böyük tamaşalarım olub, həmin tamaşalarla ölkə xaricində qastrollarda olmuşuq. Festivallarda iştirak edib, mükafat alan tamaşalarımız da var. Mənim üçün ən əsas Bakı tamaşaçısı qarşısında imtahan verməkdir. Açığını deyim, çox həyəcanlıyam. Tamaşa qəbul edilib. "Antiqona" klassik əsərdir, mövzusu önəmlidir, hər dövr üçün aktualdır.

Bu mövzu məni hərtərəfli narahat edib. Yadınızdadırsa, 44 Günlük Vətən müharibəsindən sonra sosial şəbəkələrdə bir video yayılmışdı. Gizir ailəsi ilə görüşüb, gedir müharibəyə. Yolda maşını saxlatdırıb əsas magistralda rəqs edir. Bu kadr mənə çox pis təsir etmişdi. Yaşamaq eşqi ilə yanan bir gənc, sanki toy gününün rəqsini edirdi. Bu vətən qarşısında borc anlamına gəlir. "Antiqona"da mövzu həmin borc anlayışıdır ki, hər insanda olmur. Antiqona kimi insanların sayəsində yer üzündə haqq-ədalət var. Əsər realist pyesdir və dünya səhnələrində dəfələrlə uğurla tamaşaya qoyulub. Ona görə də mənim üçün həyəcanvericidir. Eyni həyəcanı "Gecikənlər"in premyerasında yaşamışam.

***– Necə oldu ki, sizi Antalya Böyükşəhər Teatrında tamaşa hazırlamağa dəvət etdilər?***

– Gənc Tamaşaçılar Teatrında məm quruluş verdiyim "Bir səbət tənhalıq" tamaşası ilə Antalyaya festivala getmişdik. Orada tamaşanı bəyəndilər və məni teatrın bədii rəhbəri ilə görüşə dəvət etdilər. Hasiba Özgür mənə Pərvin Ünalpın "Gecikənlər"pyesini təqdim etdi ki, buna baxın, sonra danışaq. Pyes çox xoşuma gəldi və tamaşaya quruluş verdim. Artıq 10 ildir ki, həmin tamaşa səhnədən düşmür. O teatr həyatımın bir hissəsinə çevrilib. Hər tamaşadan sonra əlaqə saxlayıram, maraqlanıram. İndiyə qədər oynanılan bütün tamaşalarda zal dolub, bütün biletlər satılıb.

***– Müsahibələrinizdən birində demişdiniz ki, rejissor kimi gözəl tamaşalar qoymaq arzusundayam. Demək olarmı ki, bu arzunuza çatmısınız?***

– Olar. Dövlət Gənc Tamaşaçılar Teatrına, o zamankı bədii rəhbəri Mehriban Ələkbərzadəyə çox minnətdaram. Tamaşanı hazırladığım müddətdə teatrın direktoru böyük dəstək oldu. Çox sevinirəm ki, etimadlarını doğrultdum. Rejissorluq etmək istəyim bu aktyorluqdan üstün hesab etdiyim üçün deyil, sadəcə rejissor kimi deyəcəyim fikirlərim var. Aktyor kimi çox rollarım olub. Ustadım Cənnət Səlimova, İrina Perlovadan çox şey öyrənmişəm. Axundovun əsərlərində oynamadığım personaj bir Hacı Qara qalıb. "Müsyo Jordan və Dərviş Məstəli şah"da dörd obrazda çıxış etmişəm. Şahbaz, Qulaməli, Hatəm xan ağa və Müsyo Jordanı oynamışam. Aktyorluqdan rejissorluğa gələnlər fərqli olurlar. Çünki aktyoru daha yaxşı başa düşürlər. Mənim beynim artıq rejissorluğa köklənib. Öz qurduğum tamaşalarda rol almıram, çünki rejissor səhnə əsərinə kənardan baxmalıdır. Aktyor karyeram hələ davam edir. Böyük rollarım var. Son rollarımdan biri Cənnət Səlimovanın quruluş verdiyi "Dəli yığıncağı" tamaşasında Molla Abbas obrazıdır.

***– Universitetdə Cənnət Səlimovanın kursunda təhsil almısınız, sonra da onun Kamera Teatrında çalışmısınız. Rejissor işiniz ustadınızı qane etdi?***

–Teatr Xadimləri İttifaqının Rejissor laboratoriyasında Cənnət xanımın özündən rejissorluq dərsi almışam. Orada çox sayda pyes təhvil vermişəm. Cənnət xanım premyeralarıma həmişə baxıb. Məktəbimiz onunla eynidir, amma düşüncələrimiz fərqlidir.

***– Rejissor kimi gələcək planlarınız varmı?***

– Çoxdur. Yastığımın altında məni narahat edən pyeslər var. Etnoqrafiyamızla bağlı tamaşa hazırlamaq istəyirəm. Müharibə mövzusu da məni maraqlandırır. Əfqan həyatından bir filmə baxmışam, məni yaman tutub. Bu mövzuda tamaşa qoymağı düşünürəm. Əfqan xalqı olmaya da bilər, belə zillət içində yaşayan millətlər çoxdur.

***– Sizə rejissorluq fəaliyyətinizdə uğurlar arzu edirik.***

***Ramilə QURBANLI***
***XQ***

# Soydaşımız Çexiya "Gran-Pri"si qazanıb

**Marneuli Rayon Mədəniyyət Evinin solisti, gənc mahnı ifaçısı Şaban Məmmədov Çexiyada keçirilmiş "Praqa Milad Ulduzları 2023" 39-cu Beynəlxalq Xalq Rəqsləri və Musiqisi Müsabiqə- festivalında uğurla çıxış edib.**

Şaban Məmmədovun gözəl səsi olsa da, təəssüf ki, görmə qabiliyyətindən məhrumdur. Amma bu, onun məlahətli ifaları ilə könülləri fəth etməsinə mane ola bilməyib. Azərbaycan, gürcü və digər dillərdə eyni məharətlə mahnılar ifa edir. O, bir neçə dildə sərbəst danışa da bilir. Şaban Marneulidə, Tbilisidə, eləcə də xarici ölkələrdə təşkil edilən festivallarda dəfələrlə fərqlənib, istedadlı gənc solist kimi Azərbaycana və Gürcüstana şöhrət gətirib. Çexiya paytaxtında mötəbər festivalda uğurlu çıxışı isə həlelik, onun fəth etdiyi ən uca zirvədir.

***Nizami MƏMMƏDZADƏ,***
***Əməkdar jurnalist***

Tbilisi



# Elm xəbərləri

## Xəzərin sirləri öyrənilir

***Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun alimləri "Xəzər dənizi: Rusiya–Azərbaycan əməkdaşlığının üfüqləri" adlı distant formatda keçirilən tədbirdə iştirak ediblər.***



Tədbir Xəzər dialoqu Beynəlxalq Assambleyası və Caspian Energy Forumu çərçivəsində Coğrafiya İnstitutu ilə Rusiyanın Xəzər dənizinin Elm və İnnovasiyalar Şurası və Texnologiyanın İnkişafına və Elmi Əməkdaşlığa Dəstək Assosiasiyası arasında imzalanmış əməkdaşlıq sazişinin həyata keçirilməsi planının hazırlanması məqsədini daşıyıb.

Azərbaycanla Rusiya elmi əməkdaşlığı çərçivəsində keçirilən tədbirdə Rusiyanın Xəzər Dəniz Elmi Tədqiqat Mərkəzinin və Okeanologiya İnstitutunun Xəzər bölməsinin rəhbərləri və ekspertlərinin iştirak ediblər.

Görüşdə ölkələrimiz arasında Xəzər dənizi ilə bağlı elmi-texniki və innovativ əməkdaşlığın genişləndirilməsinin böyük perspektivləri nəzərə alınmaqla, iqlim dəyişməsi fonunda Xəzər dənizinin səviyyə tərəddüdləri, dənizin təbii və iqtisadi potensialı, ekoloji problemlər və onların aradan qaldırılması yolları, turizm sərvətlərindən istifadə imkanları və s. məsələlər müzakirə edilib.

## "Açıq qapı" günü

***Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunda "Heydər Əliyev İli" çərçivəsində məktəblilər üçün "Açıq qapı" elan edilib. Tədbirlər Planına uyğun ilk olaraq bu fürsətdən Bakıdakı 264 saylı orta məktəb-liseyin 9-cu sinif şagirdləri yararlanıblar.***



Məktəblilərlə görüşdə onları salamlayan institutun icraçı direktoru, kimya elmlər doktoru Əfsun Sucayev bildirib ki, elmlə təhsilin vəhdəti təkcə universitetlərlə deyil, orta məktəblərlə də olmalıdır: "Ona görə də tarixi muzeylər kimi elmi-tədqiqat müəssisələri də qapılarını istedadlı şagirdlərin üzünə açmalı, onların fiziki-kimyəvi proseslərlə əyani tanış olmalarını təmin etməlidir".

Görüşdə institutun yaranma tarixindən, elmi fəaliyyət istiqamətlərindən, fundamental tədqiqatlardan, əldə olunan nailiyyətlərdən danışılıb, burada çalışmış görkəmli kimyaçı alimlər – akademik Əli Quliyev və akademik İzzət Orucova haqqında məlumat verilib, şagirdlərin sualları cavablandırılıb. Məktəblilər institutda aparılan elmi təcrübələri maraqla izləyiblər. Onlar Fizioloji fəal üzvi birləşmələr, Üzvi birləşmələrin və kompozisiyaların analizi və fiziki-kimyəvi tədqiqi, Sürtkü kompozisiyaları, Mühafizəedici üzvi birləşmələr, Müxtəlif funksiyalı polimer birləşmələr və digər laboratoriyalara baş çəkərək, müasir fiziki-kimyəvi cihazların iş prinsipləri ilə yaxından tanış olublar.

## "Mirzə Rəhim Fəna. Əsərləri"

***AMEA-nın Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə "Mirzə Rəhim Fəna. Əsərləri" kitabı işıq üzü görüb.***




Dəyərli nəşri filologiya elmləri doktoru, professor Raqub Kərimov və fəlsəfə doktoru Könül Bağırova ərsəyə gətiriblər.

Kitabda XIX əsrdə Qarabağda məşhur olan "Məclisi-üns" ədəbi məclisinin yaradıcılarından olan istedadlı şair Mirzə Rəhim Fənanın şeirləri, məsnəviləri, qəzəl, qəsidə və rübailəri, o cümlədən məktub və müşahidələri ilk dəfə olaraq oxuculara təqdim olunur.

Yeni nəşrin redaktoru Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, rəyçisi isə elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimovdur.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Türkiyə – Macarıstan əlaqələri strateji səviyyəyə yüksəlir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Macarıstana səfəri, bu ölkənin baş naziri Viktor Orban ilə apardığı müzakirələr, bir çox aktual mövzularda səsləndirdiyi fikir və mülahizələr qlobal medianın diqqətini özünə cəlb edib.**



Dünən Türkiyə lideri paytaxt Budapeştdə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasında iştirak edib. Qeyd edib ki, Ankaranın məqsədi dost Macarıstanla "strateji tərəfdaşlıq" münasibətlərini "genişləndirilmiş strateji tərəfdaşlıq" səviyyəsinə yüksəltməkdir. Yeni hədəflərə çatmaq üçün tərəflər bir çox mühüm sənədlər imzalayıblar.

Ümumiyyətlə, iki ölkə arasında iqtisadiyyat, ticarət, müdafiə sənayesi, enerji və mədəniyyət sahələrini əhatə edən 17 sənəd imzalanıb. Qeyd edək ki, 1923-cü ildə imzalanmış "Türkiyə–Macarıstan Dostluq Müqaviləsi"nin 100-cü ildönümü münasibətilə 2024-cü il Türkiyə və Macarıstanda qarşılıqlı mədəniyyət ili elan olunub.

Yeri gəlmişkən, Ərdoğan yubiley münasibətilə Orbana "HU TR-100" dövlət nömrə nişanlı Türkiyə istehsalı olan TOGG elektrik avtomobili hədiyyə edib. Orban da, öz növbəsində, ali qonağa macar atı hədiyyə edib.

Türkiyə Prezidenti Budapeştdə bir çox diqqətçəkən bəyanatlar verib. Deyib ki, Türk Dövlətləri Təşkilatı (TDT) daxilində Macarıstanla əməkdaşlıq yüksək səviyyədədir. R.T.Ərdoğanın fikrincə, Macarıstan TDT ilə Avropa İttifaqı (Aİ) arasında bir növ körpü rolunu oynayır: "Macarıstan TDT ilə Aİ arasında əməkdaşlığın güclənməsinə kömək edir. Bu, çox əhəmiyyətlidir. Təbii ki, bu, Ankara–Budapeşt əlaqələrində də özünü göstərir". R.T.Ərdoğan məmnunluq hissilə söyləyib ki, ikitərəfli əlaqələr müsbət templə inkişaf etməkdədir.

Məlumdur ki, İsveçin NATO-ya qəbul olunması məsələsi Avropanın siyasi dairələrini narahat edir. Bu barədə müxtəlif fikir və ehtimallar səsləndirilir. Ərdoğan Macarıstan səfərindən geri dönərkən jurnalistlərə açıqlamasında bildirib ki, İsveçin NATO-ya üzv olması və ABŞ-nin Türkiyəyə "F-16" qırıcılarının göndərməsi məsələləri bir-birinə bağlıdır: "İnanıram ki, həm Amerikanın "F-16" məsələsi, həm də Kanadanın verdiyi vədlərə əməl etməsi ilə bağlı gözlədiyimiz müsbət irəliləyişlər parlamentimizin məsələyə (İsveçin NATO üzvlüyü - red.) müsbət baxışını sürətləndirəcək".

R.T.Ərdoğan jurnalistlərə açıqlamasında həmçinin bildirib ki, onun yaxın zamanda rusiyalı həmkarı Vladimir Putinlə danışığı baş tutacaq. Türkiyə Prezidenti "danışıqlar zamanı Taxıl Dəhlizinin fəaliyyətinin davam etdirilməsi üçün əlimizdən gələni edək deyəcəm", – deyə vurğulayıb. Ərdoğan, Putindən müsbət cavablar alacağına ümid etdiyini deyib.

***M.HACIXANLI***
***XQ***

**Finlandiyanın xarici işlər naziri Elina Valtonen, ölkənin müdafiə naziri Antti Hakkanen və ABŞ dövlət katibi Entoni Blinken ABŞ hərbçilərinə öz bazalarını, anbarlarını, silahlarını və kontingentini Finlandiyanın 15 hərbi bölgəsində yerləşdirməyə imkan verəcək "Defence Cooperation Agreement" çərçivə sazişini (DCA) imzalamaq üçün Vaşinqtonda görüşüblər. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidməti məlumat yayıb.**

# ABŞ və Finlandiya hərbi müttəfiqliyi güclənir




İmzalanandan sonra saziş Finlandiya Parlamenti tərəfindən nəzərdən keçirilməlidir. DCA-nın 2024-cü ilin yazında qüvvəyə minməsi gözlənilir. Ölkələr arasında çərçivə sazişi konkret məlumat vermir və yekun deyil. Ətraflı müddəa və şərtlər yekun müqavilədə öz əksini tapacaqdır. Finlandiyanın müdafiə naziri Antti Hakkanenin sözlərinə görə, Şərqi Finlandiyada – Rusiya ilə sərhəddə Amerika bazalarının və hərbi kontingentinin yerləşdirilməsi gözlənilmir.

Kreml müqavilənin bağlanmasını Rusiya üçün təhlükə hesab edir. Prezidentin mətbuat katibi Dmitri Peskov qeyd edib ki, Finlandiya NATO-ya üzv olub və NATO-nun hərbi infrastrukturu "artıq içəri daxil olanda" Rusiya tərəfi üçün "bu, açıq-aydın təhlükə yaradacaq". Rusiya Prezidenti Vladimir Putin Rusiya ilə Finlandiya arasında "ən mehriban münasibətlərin" olduğunu, lakin indi hərbi hissələrin Leninqrad hərbi dairəsində cəmləşməli olacağını vurğulayıb.

***SƏBUHİ***
***XQ***

# Aİ xarici ticarətdə "No Russia" qaydasını tətbiq edir

**Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı sanksiyaların 12-ci paketində ixracatçılar üçün digər ölkələrdən Rusiyaya həssas malların təkrar ixracına icazə verməyən məcburi müqavilə şərti təqdim edib. Əvvəllər belə bəndlər tövsiyə xarakteri daşıyırdı.**



Aİ Şurası Avropa mallarının ixracatçılarını "tərəfdaş ölkələr"dən başqa, üçüncü ölkələrə müəyyən həssas məhsulların tədarükü üçün müqavilələrə Rusiyaya və ya Rusiyada istifadə üçün başqa ölkəyə təkrar ixracı qadağan edən şərti daxil etməyə məcbur edib. Aİ-nin 833/2014 saylı sanksiya reqlamentinə Rusiyaya qarşı sektoral sanksiyaları müəyyən edən yeni maddənin daxil edildiyi vurğulanır. Belə bir bənd 20 mart 2024-cü il tarixinədək yeni ixrac müqavilələrinə daxil edilməlidir. Müqavilə 2023-cü il dekabrın 19-dan əvvəl bağlanıbsa, ona 2024-cü il dekabrın 20-dək, yaxud müqavilənin müddəti bu tarixdən əvvəl başa çatırsa və uzadılırsa, ona təkrar ixracı qadağan edən bənd əlavə olunmalıdır. Əgər müqavilə "tərəfdaş ölkələrə" ixracı nəzərdə tutursa, bəndin daxil edilməsinə ehtiyac yoxdur. Bunlara ABŞ, Böyük Britaniya, Yaponiya, Cənubi Koreya, Avstraliya, Kanada, Yeni Zelandiya, Norveç, İsveçrə daxildir.

Yeni şərtin əhatə etdiyi malların Rusiyaya çatdırılması Avropa İttifaqı tərəfindən qadağan edilir və bunlara ikili təyinatlı mallar və Ukraynadakı döyüş bölgələrində istifadə olunan "Rusiya silah sistemlərində istifadə olunan qabaqcıl texnoloji məhsullar" (çiplər, tantal kondansatörlər, videodomofonlar, diodlar, tranzistorlar, bilyalı podşipniklər, təyyarələrin bəzi hissələri, helikopterlər və pilotsuz uçuş aparatları və və s.), müəyyən aviasiya məhsulları (məsələn, təyyarələrdə istifadə üçün təkərlər, anten reflektorları, əyləc hissələri), aviasiya yanacağı daxildir.

Bəs, yeni şərtlərə necə nəzarət olunacaq? Brüssel hüquq firmasının partnyoru, sanksiya üzrə mütəxəssis Yuri Şumilov RBK-ya bildirib ki, qısa müddətdə belə bir mexanizmin mülki malların daha geniş siyahısına şamil ediləcəyi ehtimalı azdır: "Eyni zamanda, sanksiyaların tədricən artırılması məntiqində bunun hansısa mərhələdə baş verəcəyini istisna etmək olmaz". Onun sözlərinə görə, sanksiya qaydalarına edilən dəyişikliklərə əsasən, ixracatçılar üçüncü ölkələrdən olan kontragentləri ilə müqavilələrdə təkrar ixrac bəndinin pozulması halında kifayət qədər hüquqi müdafiə vasitələrini təmin etməlidirlər. Belə ki, ixracatçı belə bir pozuntudan xəbər tutarsa, o, qeydiyyatda olduğu və ya yerləşdiyi Avropa ölkəsinin səlahiyyətli orqanlarına məlumat verməyə borcludur.

***S.ELAY***
***XQ***

Sağlamlıq

# Siqaret beynin həcmini azaldır

**32 mindən çox insanın beyin müayinəsindən sonra müəyyənləşib ki, tütün məhsulları beyin həcminin tədricən itirilməsilə nəticələnir. İtirilmiş beyin isə bərpa olunmur.**



Əlavə bir pis xəbər odur ki, beyin həcminin azalması qocalmanı da sürətləndirir. Sent-Luisdəki Vaşinqton Universiteti tibb fakültəsinin psixiatriya professoru Laura Berut deyir ki, siqaret çəkmək, əslində, demensiya xəstəliyinin inkişafında bir amildir. L.Berutun sözlərinə görə, son vaxtlara qədər elm adamları siqaretin beyinə təsirlərini diqqətə almırdılar. İndiyədək alimlər daha çox siqaretin ağciyərlərə və ürəyə göstərdiyi dəhşətli təsirlərinə diqqət yetirirdilər, indisə aydın olur ki, siqaretin beyinə də mənfi təsiri var.

Bundan başqa, L.Berutun və onun həmkarları Böyük Britaniyanın tibbi qeydlərinin məlumat bazasından 32 mindən çox insanın siqaret çəkmə tarixçələrini, genetik məlumatlarını və beyin müayinələrini təhlil edərək belə nəticəyə gəliblər: siqaret çəkmək genetik meylin, beyin həcminin azalması da siqaretin nəticəsidir.

Bundan əlavə, aydın olub ki, siqarət çəkən insanların beyinləri kiçilir. Hətta illər əvvəl siqareti tərgitmiş insanların beyinlərinin heç vaxt siqaret çəkməyənlərə nisbətən daha kiçik olduğu aşkarlanıb. Buna görə də, təəssüf ki, vurulmuş zərəri düzəltmək mümkün deyil, lakin sonrakı zərərin qarşısını almaq mümkündür.

Əlbəttə ki, beyindən əlavə, siqaret insanın digər orqanlarına da təsir göstərir, ağciyərlərə, qan damarlarına, ürəyə, mədə-bağırsaq traktına və sinir sisteminə zərər verir.

Buna görə də, siqareti tərgitməyə çalışın. Hələ gec deyil.

***XQ***

# "Bloomberg": Kiyevin məğlubiyyətinin NATO üçün riskli nəticələri

**NATO üzvləri Ukraynanın məğlubiyyətinin Avropa İttifaqına (Aİ) təsirini "sakit şəkildə" müzakirə etməyə başlayıblar. "Bloomberg" mənbələrinin fikrincə, bu, ABŞ-ın müdafiə vədləri ilə bağlı şübhələrə səbəb olacaq.**



Şimali Atlantika Alyansının avropalı üzvləri Moskvanın şərqdə NATO üzvləri üçün yarada biləcəyi riskləri yenidən qiymətləndirərək, Ukraynanın Rusiya ilə münaqişədə məğlubiyyətinin bloka təsirini "sakit şəkildə nəzərdən keçirməyə" başlayıblar. Daxili müzakirələrdən xəbərdar mənbələr "Bloomberg"ə bildiriblər. Belə bir ssenaridə, ABŞ-ın tərəfdaşları və müttəfiqləri Vaşinqtonun müdafiə vədlərinin etibarlılığını şübhə altına almağa başlayanda dalğalanma effekti bütün dünyada hiss olunacağını deyirlər. Agentliyin həmsöhbətləri hesab edirlər ki, "belə bir strateji uğursuzluğun" nəticələri Amerika qoşunlarının 2021-ci ildə Əfqanıstandan çıxarılmasından sonra daha dərin olacaq. ABŞ kontingentinin çıxarılmasından sonra Taliban Əfqanıstanda hakimiyyəti ələ keçirmişdi.

Avropa İttifaqında bu cür müzakirələr ABŞ və Aİ-də Ukraynaya hərbi və maliyyə yardımının ayrılmasına dair razılaşmanın olmaması fonunda başlayıb. Agentliyin yazdığına görə, Avropa rəsmiləri hesab edirlər ki, Kiyev lazımi silahları almasa, bu, onu Moskvanın şərtləri ilə atəşkəs razılaşmasını qəbul etməyə məcbur edə bilər. Ukraynaya yardımın gələn ilin əvvəlində təsdiqlənəcəyi ilə bağlı iddialara baxmayaraq, rəsmilər bunun "döyüş meydanında böyük irəliləyiş"ə səbəb olmayacağını və mübarizənin "illər boyu" davam edə biləcəyini deyirlər. Məqalədə qeyd edilir ki, Prezident Co Baydenin ictimai təminatlarına baxmayaraq, ABŞ və digər müttəfiqlərin, həqiqətən, kiçik ölkələri qorumaq üçün öz qoşunlarını riskə atıb-atmayacağına dair suallar artır.

Noyabrda NATO-nun baş katibi Yens Stoltenberq demişdi ki, Rusiyanın Ukraynada qələbəsi Şimali Atlantika Alyansını zəiflədəcək, nüfuzunu sarsıdacaq.

***S.MƏMMƏDOV***
***XQ***


## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası

*aşağıdakı vəzifələri tutmaq üçün*

**Müsabiqə Elan Edir:**

| № | Kafedraların adları | Vəzifələrin adları (ştat vahidi ilə) |
|---|---|---|
| 1. | Konstitusiya və inzibati hüquq kafedrası | baş müəllim – 1 ştat |
| 2. | Konstitusiya və inzibati hüquq kafedrası | müəllim – 0,5 ştat |

**Qeyd:** – müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində qəbul edilir. Təqdim olunması nəzərdə tutulan sənədlərin siyahısı barədə aşağıda qeyd olunmuş əlaqə vasitəsi ilə məlumat almaq mümkündür. Müsabiqədə iştirak etmək istəyənlər həmin sənədləri mövcud əsasnaməyə uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər:

Telefon – (994 12) 498 09 83
Ünvan – AZ1000, Bakı şəhəri, Vidadi küçəsi 158.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 278 (30394) 20 dekabr 2023-cü il, çərşənbə

## İdman xəbərləri

### "Araz – Naxçıvan" qalib gəldi

**Futbol üzrə Azərbaycan Kubokunda 1/8 final mərhələsinin daha bir oyunu keçirilib.**




"Report"un məlumatına görə, günün ilk matçında Premyer Liqa təmsilçisi "Araz–Naxçıvan" I Liqada mübarizə aparan "İrəvan"la üz-üzə gəlib.

Qarşılaşma Naxçıvan təmsilçisinin 8:2 hesablı qələbəsi ilə yekunlaşıb. Komandanın qollarını 24, 43, 45+4-cü (pen) dəqiqələrdə Aksel Nqando, 25 və 51-ci dəqiqələrdə Orxan Əliyev, 73-cü dəqiqədə Miço Kuzmanoviç, 80 və 83-cü dəqiqələrdə Elvis Maşike vurub. "İrəvan"da isə 16-cı dəqiqədə Vüsal Qənbərov və 37-ci dəqiqədə Vüsal Əsgərov adlarını tabloya yazdırıblar.

"Araz–Naxçıvan" 1/4 finalda bu gün oynanılacaq "İmişli" – "Qəbələ" matçının qalibi ilə görüşəcək. Bu raundun digər oyunları 20-21 dekabrda keçiriləcək.

### "Qarabağ"ın qol rekordu

**"Qarabağ" klubu Azərbaycan çempionatları tarixində yeni rekorda imza atıb. Ağdam klubu eyni rəqiblə oyunlarda ən çox qol vuran komanda olub. Belə ki, matçdakı sonuncu qolun müəllifi Hamidu Keyta "Köhlən atlar"ın derbidəki 120-ci qoluna imza atıb. Qurban Qurbanovun yetirmələri bu göstəriciyə 93-cü matçda çatıb.**



Bu görüşədək rekord "Neftçi"yə məxsus idi. Bakılılar "Şamaxı" ilə qarşılaşmalarda 119 qol vurub. Qeyd edək ki, "Qarabağ" bu oyunda "Neftçi"yə 2:0 hesabı ilə qalib gəlib.

### Beşqat dünya çempionu Rövşən Xəlilov

**Azərbaycan idmançısı Rusiyada keçirilən dünya çempionatında 2 qızıl medal qazanıb. Azərbaycan pauerliftinqçisi Rövşən Xəlilov Rusiyanın paytaxtı Moskvada WRP (World Raw Powerlifting) Federasiyasının keçirdiyi dünya çempionatında uğurlu çıxış edib.**




75 kq çəki dərəcəsində yer alan idmançı, ümumilikdə, 707.5 kq-ın (squat hərəkətində 245 kq - yeni Azərbaycan rekordu, deadlift hərəkətində 292.5 kq - yeni dünya rekordu, bench press hərəkətində isə 170 kq), iki hərəkətin cəmində isə 462,5 kq-ın (bench press + deadlift) öhdəsindən gələrək 2 qızıl medala sahib çıxıb.

O, 2 il əvvəl Azərbaycan çempionatında ayağından zədə aldığı üçün uzun müddət yarışlara qatıla bilməmişdi.

Beşqat dünya çempionu FHN Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşıdır. O, öz qələbəsini FHN-nin yaranma gününə həsr etdiyini bildirib.

*FİDAN*
*XQ*

## OXUCULARIN NƏZƏRİNƏ!

### "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## İçərişəhərdə rənglərin "Dialoq"u

**Bakı Fotoqrafiya Evində "İçərişəhər" Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyində fəaliyyət göstərən Bakı Marionet Teatrının 35 illik yubileyinə həsr olunmuş "Dialoq" adlı beynəlxalq sərgi açılıb.**



Qoruq İdarəsindən mətbuata bildirilib ki, sərgidə məşhur gürcü rəssamı, kukla ustası Baçana Xalvaşinin marionet və foto işləri, eləcə də Bakı Marionet Teatrı tərəfindən səhnələşdirilmiş "Leyli və Məcnun" tamaşasının marionetləri və dekorasiyaları nümayiş olunur.

Ümumilikdə Bakı Fotoqrafiya Evində 20 foto və 12 marionet sərgilənir.

*XQ*

## Sənət inciləri

### Tabloda əbədiləşmiş "Kartof yeyənlər"

**Dünya şöhrətli holland rəssamı Vinsent Van Qoqun "Kartof yeyənlər" əsəri 1885-ci ildə ərsəyə gəlib.**



Bu tablosunda Van Qoq dostlaşdığı Qrootlar ailəsinin təsvirini verib. Ailə üzvləri kasıb olduqları üçün əsas yeməkləri kartof idi. Rəssam tez-tez onlara qonaq gedərdi. Onun həmin dövrə aid bir çox etüd və rəsmlərində də bu ailə təsvir edilib.

Tablodakı personajların hər biri tənha və həyatdan təcrid olunmuş insanlardır. Onlar bir-birlərinə baxmırlar, ünsiyyət qurmaqdan qaçırlar. Təcrid olunsalar da, onları bir şey birləşdirə bilir. Bu, lampa və onun ətrafa saçdığı işıqdır. Həmin lampa, sanki, onlara təsəlli verir.

Rəssam kəndli ailəsinin çətiniklərə, zəhmətə qatlaşdığını obrazların əllərinin qaba olması ilə göstərib.

Van Qoqun bütün əsərlərində olduğu kimi, bu tabloda da işıq-kölgə, rəng texnikası, simmetriyanın dəqiqliyi kimi bir sıra detallar diqqəti cəlb edir. Tabloya diqqətlə nəzər salsaq soyuq rənglərin ahəngdarlığının ön planda olduğunu görərik.

Hazırda əsər Hollandiyanın Amsterdam şəhərində, Van Qoq muzeyində qorunub saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Hadisə

### Balıqçıların "gəmi ovu"

***Ata və qızı Miçiqan gölündə balıq tutarkən XIX əsrdə batan gəmi tapıblar. Alimlər bunun 37 metrlik "George L.Newman" gəmisi olduğunu müəyyən ediblər.***



Sualtı idarə olunan qurğu ərazini araşdırdıqdan sonra, obyektin, həqiqətən də suyun altında 3 dirəkli taxta yelkənli qayığın qalıqları olduğunu təsdiqləyib. Arxeoloqlar hesab edirlər ki, bu, 152 il əvvəl 1500-ə qədər insanın ölümünə səbəb olan faciəli yanğında batan 37 metrlik gəmidir.

*N. AYTƏN*
*XQ*

## Hava

### Yağışsız, dumanlı bir gün...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 20-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq. Cənub küləyi əsəcək. Gecə 2-5°, gündüz 7-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunundan 769 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacaq.

**Q. QASIMOV**
**XQ**

## Sənət dodaqqaçdıları

### Cabbarlı gülüşü...

#### "Təzə palton mübarək!"

Cəfər Cabbarlı geyimə o qədər də fikir verməzmiş. Nadir hallarda qalstuk bağlayıb kostyum geyərmiş. Bir dəfə həyat yoldaşı Sona xanım asılqandan ərinin köhnə paltosunun yerinə, xəlvəti aldığı təzə, o vaxt dəbdə olan və çox məşhur adamların geyindiyi qabardin paltonu asır.

Cəfər də səhər tezdən ağlına heç nə gəlmədən asılqandan paltonu götürüb geyinir və işə gedir. Teatrda onu hərə bir tərəfdən təbrik edir:

– Cəfər qardaş, təzə palton mübarək!

– Sağ olun, sağ olun,– deyə Cəfər özü də heyrətlə əynindəki paltoya baxır və gülümsəyir.

#### "Durun, məni yola salın!"

C.Cabbarlı hər gün işə gedəndə evdəkilərə deyərmiş:

– Durun, məni yola salın!

Bir gün Sona xanım Cəfərin qardaşı qızı Mələyə və onun rəfiqəsi Firəngizə deyir:

– Gəlin, bu dəfə Cəfəri tar-qavalla yola salaq.

Ertəsi gün ədib evdən çıxanda yenə adəti üzrə "durun, məni yola salın" deyən kimi, Sona xanım dəf, Mələk qarmon, Firəngiz də tar götürüb qapı ağzına gəlir və "vağzalı" çalmağa başlayırlar.

Cəfər əvvəl duruxur, sonra özünü sındırmayaraq deyir:

– Hə... Bu lap qiyamət oldu ki. Bundan sonra məni elə bu cür yola salın! Ədib gülə-gülə evdən çıxıb işə yollanır.



#### "Qiyamət əsərdir"

"Sevil" pyesi üzərində C.Cabbarlı ən çox Altıağacda işləmişdir. O, evdə tapşırıbmış ki, yazdıqlarını kimsə oxumasın. Lakin bu ciddi tapşırıq Sona xanımı da, qardaşı qızı Mələyi də daha çox həvəsləndirir.

Onlar Cəfər evdə olmayan vaxt növbə ilə öncə biri, sonra digəri pusquda durub, yazılanları oxuyurmuşlar. Bir gün Cəfər hər ikisini "oğurluq" üstündə yaxalayır:

– Balam, mən sizə deməmişəm ki, mənim dəftərimi oxumayın. Bu dəfə sizi bağışlayıram. Ancaq deyin görüm, necədir? Əsər xoşunuza gəldimi? Yadınızda bir şey qaldımı? Yoxsa oxuyub qurtaran kimi yaddan çıxdı?

– Qiyamət əsərdir, ay Cəfər əmi, lap əntiqə yazmısan. Daha bundan olmaz!– deyə Mələk sevincək cavab verir.

Cəfər gülümsəyir:

– Daha durub deməyəcəksiniz ki, pisdir. Birinizin əmisiyəm, birinizin də ki...

*Z.HÜSEYNLİ*
*XQ*

## Kosmos

### Superulduz partlayışı

**Əgər parlaqlıq dərəcəsini ölçmüş olsaydıq, Saturnun parlaqlığının 0, Merkuri və Marsın 1, Yupiterin 2.5, Veneranın 4.5, Ayın 10 və 12, Günəşin isə 26.7 civarında olduğunu müəyyən edərdik. Amma bunların heç birinin parlaqlığı bir Supernovanınkı ilə müqayisə edilə bilməz. Supernovalar və ya böyüklüklərinə görə Hipernovalar qorxunc kosmik hadisədir. Supernova bir neçə ulduzun birləşməsidir. Lakin burada əsas məsələ onun yox olması – enerjisi bitən böyük ulduzların şiddətli partlamasıdır.**



Nəhəng bir ulduzun artıq tarazlığını saxlaya bilmədiyini və çökərək partladığını düşünün. Bu sırada ətrafa yüz minlərlə Yer kürəsi miqdarında maddə və yüz milyardlarla Günəşə bərabər işıq saçıldığını xəyal edin.

Əgər bu qorxunc hadisə bizdən 10 işıq ili, yəni, təxminən, 92 trilyon kilometr uzaqlıqda yaşanmış olsa da, bir neçə gün səmada 2-ci bir Günəş yarandığını düşünərdik və səma hədsiz parlaq olardı.

Bu şəkildə gördüyünüz isə Yerə ən yaxın supernovadır.

*Ayan SƏMƏDQIZI,*
*tələbə-jurnalist*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3336
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00